## Günün sözü

**Prezident İlham Əliyev:**

**Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir". Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, "Bir millət, iki dövlət", əlavə də etmək istəyirəm, "Bir yumruq!".**

## Böyük aksiyanın uğurlu nəticələri

Səhifə ⇨ 4




Səhifə ⇨ 6



## Qərb Azərbaycanın tərəfindədir


# Xalq qəzeti

Xalqın qəzeti!

№ 88 (30204) 30 aprel 2023-cü il, bazar

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

veb-sayt: www.xalqqazeti.az


# Türkiyə və Azərbaycan hər zaman bir yerdədir

## Atatürk Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 29-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfərə gəlib.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyənin Sənaye və Texnologiya naziri Mustafa Varank və digər rəsmi şəxslər qarşıladılar.

*AZƏRTAC*

## Türkiyə: kosmos, aviasiya və texnologiya nəhəngi

Səhifə ⇨ 2



## Sprint yarışında "Red Bull Racing"in pilotu qalib oldu




Səhifə ⇨ 9

## Rəsmi İrəvanın "diversant" oyunu

Səhifə ⇨ 4

## İranda Nizamini gözdən salmaq cəhdləri



Səhifə ⇨ 8

# Haqq işimizə dünya dəstəyi

Səhifə ⇨ 4

## Azərbaycan mina təhlükəsinə qarşı beynəlxalq həmrəyliyə çağırır

Səhifə ⇨ 6



## Yeni qlobal düzən: bir, yoxsa çoxqütblü dünya?!

G7 2023 HIROSHIMA SUMMIT

Səhifə ⇨ 10

## Şəhriyarın "Bakı miniatürləri" necə yaranmışdı?

Səhifə ⇨ 8

## Tatarıstan – Şimalda türk məmləkəti

Səhifə ⇨ 7




## Azad edilən torpaqların bar-bərəkəti cana gətirilir



Səhifə ⇨ 7

## Ukrayna əks-hücum hazırlıqlarını başa çatdırıb

Səhifə ⇨ 10

# Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan İstanbulda “TEKNOFEST” festivalında iştirak ediblər

**Aprelin 29-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan İstanbulda keçirilən “TEKNOFEST” aerokosmik və texnologiya festivalında iştirak ediblər.**



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan, Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva qardaş ölkənin texnoloji inkişafının daha bir göstəricisi olan “Togg” avtomobili ilə festivalın keçirildiyi məkana gəldilər.

Yolboyu düzülən festival iştirakçıları prezidentləri, birinci xanımları gül-çiçək dəstələri və sürəkli alqışlarla qarşıladılar.

Sonra xatirə şəkli çəkdirildi.

Liviyanın Baş naziri **Əbdülhəmid Dibeybe** çıxışında “TEKNOFEST”ə dəvət edilməsini və bu tədbirdə iştirakını Türkiyə ilə Liviya arasında dərin tarixi əlaqələrin və iki xalqın birliyinin göstəricisi olduğunu dedi.

Müasir Türkiyənin inkişafında Rəcəb Tayyib Ərdoğanın rolunu vurğulayan Liviyanın Baş naziri bildirdi ki, Türkiyə bu gün uğurlu dövlət modelinin ən gözəl nümunəsidir. Bu gün biz xalqına, millətinə və Vətəninə sözün həqiqi mənasında xidmət edən bir Türkiyə modelini görürük.

Akkuyu Atom Elektrik Stansiyasının inşasının Türkiyənin imkanlarını daha da genişləndirəcəyini vurğulayan Əbdülhəmid Dibeybe diqqətə çatdırdı ki, bu gün Türkiyə dövləti müdrik rəhbərliyi, sahib olduğu böyük imkanları sayəsində bütün maneələrə qarşı sarsılmaz mövqe nümayiş etdirir.

Fevralın 6-da baş vermiş zəlzələnin fəsadlarının Prezident Rəcəb Tayyib Ərdoğanın liderliyi və türk xalqının əzmkarlığı sayəsində sürətlə aradan qaldırıldığını deyən Baş nazir bərpa işlərinin uğurla həyata keçirildiyini vurğuladı.

Əbdülhəmid Dibeybe bildirdi ki, əhatə coğrafiyasını ildən-ilə genişləndirən “TEKNOFEST” Türkiyənin kosmos, aviasiya və texnologiya sahələrində necə sürətlə inkişaf etdiyini göstərir. O, Liviyanın hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsinə verdiyi töhfələrə görə Türkiyə dövlətinə və “Baykar” şirkətinə təşəkkürünü bildirdi.

***

Sonra Azərbaycan Prezidenti İlham Əliyev çıxış etdi.

## Prezident İlham Əliyevin çıxışı



– Hörmətli Cümhurbaşqanı, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan, hörmətli Əminə xanım, hörmətli və əziz dostlar.

Qardaş ölkədə yenidən olmağımdan çox məmnunam. Sizə Azərbaycan xalqının səmimi salamlarını gətirmişəm. Bir il öncə “TEKNOFEST” festivalı Bakıda keçirilmişdir və əziz qardaşımla bərabər biz “TEKNOFEST”də iştirak etmişdik. Bu gün mən buradayam. Bu, bir daha onu göstərir ki, Türkiyə və Azərbaycan hər zaman bir yerdədir. Türkiyə və Azərbaycan dost, qardaş ölkələrdir.

Eyni zamanda, iki il bundan öncə Şuşa Bəyannaməsinin imzalanması ilə Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. O tarixi Bəyannamənin Qarabağın tacı olan Şuşada imzalanmasının xüsusi önəmi var. Şuşa Azərbaycan xalqının əziz şəhəridir, Türk dünyasının əziz şəhəridir. Şuşanın işğaldan azad edilməsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmişdir. Türkiyə, onun Cümhurbaşqanı, qardaş türk xalqı daim bizim yanımızda idi.

İkinci Qarabağ savaşının ilk dəqiqələrindən son dəqiqələrinə qədər əziz qardaşım Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan bizim yanımızda idi. Onun açıqlamaları, onun mesajları Azərbaycanı birmənalı dəstəkləmişdi. O söyləmişdir ki, Azərbaycan tək deyil, Türkiyə Azərbaycanın yanındadır və bu, bizə əlavə güc verdi, əlavə ruh verdi.

Türkiyə son 20 il ərzində böyük və şərəfli yol keçmişdir. Hörmətli Cümhurbaşqanının liderliyi ilə Türkiyə dünya çapında söz sahibinə çevrilmiş, bizim bölgəmizdə sülhün, sabitliyin, təhlükəsizliyin qarantıdır. Türkiyə böyük Türk dünyasının birləşməsi işində çox böyük rol oynadı. Ötən ay türk dövlətlərinin Ankarada keçirilmiş Zirvə toplantısında da bütün türk dövlətləri əziz qardaşımıza öz dəstəyini, öz hörmətini və bizim ümumi həmrəyliyimizi bildirmişdir. Türk dünyasının böyük coğrafiyası, böyük potensialı, böyük təbii qaynaqları, böyük hərbi gücü var. Türk dünyasının birləşməsində Rəcəb Tayyib Ərdoğanın Türk dünyası qarşısında tarixi xidmətləri vardır.

Bu gün Türkiyə Avrasiyanın ticarət, enerji, nəqliyyat, siyasi mərkəzidir. Gündən-günə Türkiyənin önəmi, rolu artır. Türkiyənin güclü sənayesi həm Türkiyəni gücləndirir, həm də Türkiyənin müttəfiqlərini gücləndirir. Türk Ordusu bu gün dünya çapında ən öndə olan orduların sırasındadır. Türkiyənin müdafiə sənayesi bu gün bütün dünya tərəfindən qəbul edilir. Ən inkişaf etmiş, ən çağdaş, ən modern müdafiə sənayesi həm Türkiyəni, həm bizi gücləndirir və uzun illər bundan sonra Türkiyənin təhlükəsizliyini təmin edəcəkdir.

Bu gün “TEKNOFEST”də iştirak edərkən “TEKNOFEST”in qurucusu, əziz qardaşımız Selçuk Bayraktarın xidmətlərini də qeyd etmək istərdim. Selçuk bəy Azərbaycanda dəfələrlə olmuş, o cümlədən azad edilmiş torpaqlarda, Şuşada. Son gəlişində - aprelin 3-də Azərbaycanda olarkən biz gələcək işbirliyi haqqında danışdıq və Azərbaycanda “Bayraktar” mərkəzinin yaradılması haqqında razılığa gəldik. İnşallah, yaxın gələcəkdə Azərbaycanda “Bayraktar” mərkəzi yaradılacaq, orada təhsil, xidmət, istehsal da olacaqdır. Selçuk bəy Bakıda olarkən “Kızılelma”nın bir maketini hədiyyə etdi. Mən fürsətdən istifadə edərək “Kızılelma” ilə bağlı bütün qardaşlarımızı təbrik etmək istəyirəm və ümid edirəm ki, yaxın gələcəkdə “Kızılelma” Azərbaycanın səmasında da olacaqdır. “Kızılelma” havada, “Altay” və “Togg” quruda, “Anadolu” dənizdə - bugünkü Türkiyə budur.

Bir neçə gündən sonra Azərbaycan xalqı çağdaş Azərbaycan dövlətinin banisi, qurucusu Heydər Əliyevin 100 illiyini qeyd edəcək. Heydər Əliyev demişdir: “Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir”. Bu gün biz bunu sübut edirik. Bu gün bütün atalarımızın, əcdadlarımızın ruhu şaddır. Çünki Türkiyə və Azərbaycan bir yerdədir. Atam demişkən, “Bir millət, iki dövlət”, əlavə də etmək istəyirəm, “Bir yumruq!”.

Mən bu il üçüncü dəfə qardaş ölkəyə səfər edirəm. Fevral ayında olmuşam, mart ayında olmuşam, bu gün buradayam. Əziz qardaşım, növbə Sizindir. Biz Sizi gözləyirik, bütün Azərbaycan xalqı Sizi gözləyir, Sizi öpür, qucaqlayır, Sizə öz hörmət və sevgisini çatdırır. Türkiyə–Azərbaycan birliyi əbədidir!

***

“TEKNOFEST” çərçivəsində Azərbaycan dövlətinin zəlzələnin baş verdiyi Kahramanmaraş vilayətində inşa edəcəyi min ev, məktəb, məscid və digər infrastruktur obyektlərindən ibarət yaşayış kompleksinin onlayn rejimdə təməlinin qoyulması mərasimi oldu.

Azərbaycanın Türkiyəyə bu qardaşlıq köməyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirən Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:

– Əziz xalqım, xanımlar və cənablar.

Əziz qardaşım İlham Əliyev lap əvvəldən mərkəzi Pazarcık olan zəlzələdə bizi heç vaxt yalnız qoymadı. İlk andan etibarən axtarış-xilasetmə heyətləri Kahramanmaraşda bizimlə birlikdə oldu. Onunla da kifayətlənmədi, daha sonra İlham qardaşım Kahramanmaraşda min evin inşa ediləcəyinə söz verdi. Təbii ki, orada məktəbi, məscidi, yataqxanası və yaşayış binaları olan bir Azərbaycan şəhəri inşa etməyi qərara aldı. Bu gün fürsətdən istifadə edərək, indi onun təməlini qoyacağıq. Vahid Kirişçi bəy qarşımızdadır.

Türkiyənin kənd təsərrüfatı və meşə naziri **Vahid Kirişçi:** Ehtiramımızı ifadə edirəm, cənab Prezidentim. Buradakı iştirakçılar adından Zati-alinizi, möhtərəm Prezidenti, hörmətli xanımları dərin ehtiramla salamlayıram.

**Prezident Rəcəb Tayyib Ərdoğan:** İndi ətrafı yaxından göstərin, harada nə var görək. Layihə möhtəşəmdir. Bu layihəni, İnşallah, qısa müddətdə haqqı çatanlara Azərbaycanın əli ilə təqdim edəcəyik.

***

Sonra yaşayış kompleksinin təməli qoyuldu.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: İlham qardaşım deyir ki, bir ildə başa çatdırılmalıdır, xeyirli olsun.

**Prezident İlham Əliyev:** Xeyirli olsun.

***

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Prezidenti İlham Əliyevə Türk dünyasının böyük oğlu, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə hazırlanmış xatirə əsginasını təqdim etdi.

***

Festivalda çıxış edən Türkiyə Prezidenti **Rəcəb Tayyib Ərdoğan** dedi:



– Azərbaycan Prezidenti əziz qardaşım İlham Əliyev.

Liviyanın Baş naziri qardaşım Əbdülhəmid Dibeybe.

Əziz istanbullular, xanımlar və cənablar, “TEKNOFEST”in hörmətli iştirakçıları, əziz gənclər.

Sizi ən səmimi hisslərimlə, sevgi və məhəbbətlə salamlayıram.

Maşallah, bu il də İstanbulda “TEKNOFEST” başqa cür gözəldir. Burada sizin vasitənizlə ölkəmizin 81 vilayətindəki bütün gənc ürəklərə salamlarımı göndərirəm. Könül coğrafiyamızın hər tərəfindəki gənclərimizi, gənc qardaşlarımızın hamısını buradan bir daha sevgi ilə salamlayıram.

Dünyanın bir nömrəli aviasiya, kosmik və texnoloji festivalı “TEKNOFEST”də sizlərlə bərabər olmaqdan böyük məmnunluq duyuram. İstanbulumuzdan və Türkiyənin müxtəlif şəhərlərindən “TEKNOFEST”ə təşrif buyuran gənclərimizə “İstanbulumuza xoş gəldiniz!” deyirəm.

Azərbaycan Prezidenti, hörmətli qardaşım və dostum İlham Əliyevə xanımı ilə birlikdə bilavasitə iştirak etdiyi üçün təşəkkür edirəm.

Eyni qaydada Liviyanın Baş naziri Dibeybe qardaşıma da təşəkkür edirəm.

Şöhrəti ölkəmizin sərhədlərini də aşan altıncı “TEKNOFEST”də sizlərlə birlikdəyik. Birincisini 2018-ci ildə keçirdiyimiz “TEKNOFEST”, şükür olsun, artıq öz sahəsində bir markaya çevrilib. Keçən il Bakıda can azərbaycanlı gənclərimizlə “TEKNOFEST” sevincini yaşadıq. Samsundan Qaziantepə qədər ölkəmizin müxtəlif vilayətlərində texnologiyaya, müdafiə sənayesinə, elmə marağı olan gənclərimizlə bir araya gəldik. Builki texnologiya bayramımızı indi İstanbulda keçiririk, daha sonra İnşallah, Ankarada təşkil edəcəyik.

Milli texnoloji hamləmizin konkret nümunələrinin nümayiş etdirildiyi “TEKNOFEST”in ölkəmizə, millətimizə və siz gənclərimizə xeyirli olmasını diləyirəm. Bizlərə bu qürur mənzərəsini yaşadan T3 Vəqfinə, nazirliklərimizə, bütün tərəfdaş qurum və təşkilatlarımıza təşəkkür edirəm. Müsabiqəyə qatılan, yer tutan, layihələri və fikirləri ilə qarşıda yeni üfüqlər açan bütün qardaşlarımızı səmimi-qəlbdən təbrik edirəm.

“TEKNOFEST”də iştirak üçün müraciət edən komandaların sayının ildən-ilə dəfələrlə artdığını vurğulayan Türkiyə Prezidenti dedi: “Bu festivala 2018-ci ildə 4333 komanda ilə Bismillah demişdik. Bu il 81 vilayət və 96 ölkədən 333 min komanda, 1 milyon iştirakçı müraciət edib. Yarışların kateqoriyası da 14-dən 41 əsas və 102 alt kateqoriyaya çatıb. İştirakçıların sayının artması ilə birlikdə mükafatlarımızın məbləği də yüksəlib. Cəmi 4 milyon mükafat və dəstək məbləği ilə başlayan proses 44 milyon lirəyə çatıb. Rekordların və ilklərin festivalı olan “TEKNOFEST”in qarşıdakı dövrdə uğur səviyyəsinin daha da yüksələcəyinə inanıram”.

Fevralın 6-da baş verən zəlzələlərdən sonra əhalinin harayına çatan T3 Vəqfini və “Baykar” şirkətini təbrik edən Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, “Baykar” şirkəti “Əsrin fəlakəti” qarşısında nümayiş etdirdiyi nümunəvi mövqe ilə bu millətin doğma övladı olduğunu bir daha ortaya qoydu. Dövlət başçısı T3 Vəqfinin və “TEKNOFEST” könüllülərinin dəfələrlə bölgəyə gedib zəlzələdən zərər çəkənlərin çətin günlərində yanlarında olduqlarını xatırladaraq onlara minnətdarlığını ifadə etdi.

Kahramanmaraşda təməli qoyulan evlərə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirən Türkiyə Prezidenti dedi: “Kahramanmaraşda təməlini bir az əvvəl birlikdə qoyduğumuz evlər üçün İlham qardaşıma da çox təşəkkür edirəm. Azərbaycan dövləti və xalqı bu müddətdə dostluğun və qardaşlığın nə demək olduğunu göstərdi”.

Prezident Rəcəb Tayyib Ərdoğan Türkiyənin yüksək texnologiyalara əsaslanan layihələr həyata keçirdiyini qeyd edərək vurğuladı: “Təkcə son aylarda yaşadığımız inkişafı sizlər də gördünüz. Bir az əvvəl əziz qardaşım İlham Əliyev də dedi: “Kızılelma” havaya qalxdı, “Togg” satışa çıxarıldı. Budur, “Kızılelma”, “Akıncı” qarşımızdadır, “TCG Anadolu” gəmisi Dəniz Qüvvələrinə təqdim edildi”.

İndiyədək “TCG Anadolu” gəmisini 100 minə yaxın vətəndaşın ziyarət etdiyini diqqətə çatdıran Türkiyə Prezidenti Qara dənizdə çıxarılan təbii qazın istismarına başlanılmasını, milli döyüş təyyarəsinin, “Gökbey” helikopterinin, “Hürjet” və “ATAK-2” qırıcılarının, “Altay” tankının istifadəyə verilməsini Türkiyənin son illərdə böyük uğurlarının göstəricisi kimi dəyərləndirərək, “TEKNOFEST”in bütün bu nailiyyətlərin rəmzi olduğunu qeyd etdi.

Türkiyənin son illərdə kosmik sahədə də böyük uğurlar qazandığını qeyd edən Prezident Rəcəb Tayyib Ərdoğan İMECE peykinin kosmosa göndərilməsinin əhəmiyyətini vurğulayaraq, Beynəlxalq Kosmik Stansiyaya yola düşəcək türk pilotlar Alper Gezeravcıya və Tuva Cihangir Atasevərə uğurlar arzuladı.

***

Çıxışlardan sonra “TEKNOFEST” çərçivəsində keçirilmiş müsabiqələrin qaliblərinin mükafatlandırılması mərasimi oldu.

Müsabiqənin qalibləri ilə xatirə şəkilləri çəkdirildi.

“Kızılelma” pilotsuz uçuş aparatının səmada manevrləri izlənildi.

“Baykar” şirkətinin İdarə Heyətinin sədri Selçuk Bayraktar Azərbaycan Prezidenti İlham Əliyevə, Liviyanın Baş naziri Əbdülhəmid Dibeybəyə və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana xatirə hədiyyələri təqdim etdi.

***

Qeyd edək ki, milli texnoloji həmlə konsepsiyası ilə texnologiya sahəsində sürətlə inkişaf edən Türkiyənin altıncı ildir təşkil etdiyi builki “TEKNOFEST” festivalı aprelin 27-də start götürüb. Mayın 1-dək davam edəcək festival Türkiyə Texnologiya Komandası Vəqfinin (T3 Vəqfi), Sənaye və Texnologiya Nazirliyinin birgə təşkilatçılığı, qardaş ölkənin milli texnoloji sistemində mühüm rol oynayan dövlət, özəl, elm və media qurumlarından ibarət 120-dək qurumun tərəfdaşlığı ilə keçirilir. İldən-ilə genişlənən “TEKNOFEST”də beş gün ərzində texnologiya, elm, aviasiya-pilotaj nümayişləri, sərgilər, konfranslar, texnoloji yarışlar, mükafatlandırma mərasimləri və digər tədbirlər təşkil olunacaq.

Festival çərçivəsində keçirilən texnoloji yarışlar öz arzularını reallığa çevirmək istəyən gənclərin layihələrinin təqdimatı üçün ideal platforma təklif edir. Məhz bunun nəticəsidir ki, bu möhtəşəm festivalın iştirakçılarının sayı ildən-ilə sürətlə artmaqdadır. Belə ki, “TEKNOFEST”in ilk dəfə təşkil olunduğu 2018-ci ildə tədbirə 4333 komanda və 20 min iştirakçı qatılmışdısa, bu il komandaların sayı 333 mindən, iştirakçıların sayı isə 1 milyondan çoxdur. Builki “Texnoloji yarışlar”da 102 müxtəlif kateqoriya üzrə 41 yarış keçirilir.

Xatırladaq ki, 2022-ci il mayın 26–29-da “TEKNOFEST” ilk dəfə Türkiyədən kənarda – Azərbaycanda keçirilib. “TEKNOFEST Azərbaycan”ın açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, birinci xanımlar Mehriban Əliyeva və Əminə Ərdoğan, eləcə də Nobel mükafatı laureatı Əziz Səncər iştirak ediblər.

“TEKNOFEST Azərbaycan” festivalını 300 minə yaxın insan ziyarət edib. Festival çərçivəsində üç beynəlxalq tədbir və səkkiz texnoloji müsabiqə təşkil olunub. Həmin müsabiqələrdə 5 mindən çox gəncin formalaşdırdığı 1000-dən çox komanda yarışıb.

**AZƏRTAC**



# Prezidentlər birgə nahar ediblər



Aprelin 29-da İstanbulda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan ilə birgə nahar ediblər.

***AZƏRTAC***

# Azərbaycan və Türkiyə prezidentləri "CNN Türk"ün müxbirinin suallarını cavablandırıblar




**"TEKNOFEST" festivalında iştirak edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan "CNN Türk" televiziyasının müxbiri Fulya Öztürkün suallarını cavablandırıblar.**

**Prezident İlham Əliyev** müsahibədə deyib: Çox xoşbəxtəm ki, qardaşımın yanındayam, burada da olmalıyam. Bu gözəl, möhtəşəm bayramı bərabər qeyd etdik, təbriklərimizi çatdırdıq. Mən söylədim ki, bu il artıq üçüncü dəfədir Türkiyədəyəm. İndi növbə qardaşımındır. İnşallah, seçkilərdən sonra onu Azərbaycanda gözləyirik.

**Fulya Öztürk**: Mehriban xanım da buradadır. Salam, necəsiniz?

**Mehriban xanım Əliyeva**: Salam, sağ olun. Çox qürur duyuruq.

**Əminə xanım Ərdoğan**: Bu xoş günü birlikdə qeyd edirik və buna görə çox təşəkkür edirik. Bu xoş günümüzdə bizimlə olduqlarına və zəlzələ zonasında etdikləri yardımlara görə sonsuz təşəkkürlərimizi bildiririk.

**Mehriban xanım Əliyeva**: Sağ olun. Çox böyük qürur duyuruq.

**Fulya Öztürk**: "TEKNOFEST" ötən il Azərbaycanda keçirilmişdi, yenidən təşkil olunacaqmı?

**Prezident İlham Əliyev**: Gözləyirik, əlbəttə, keçiriləcək. Mən dedim ki, Azərbaycanda "Bayraktar" Mərkəzi qurulacaq, "TEKNOFEST" yenə də gələcək. Keçən il çox gözəl bir tədbir keçirildi. Gözləyəcəyik, sizi də gözləyirik.

**Fulya Öztürk**: İnşallah, gələcəyik. İkinci Qarabağ müharibəsi qazisi də burada, "TEKNOFEST"dədir. Adınızı öyrənə bilərəm?

**Qazi**: İkinci Qarabağ müharibəsinin qalibi, iki ayağını da ağır döyüşlərdə itirmiş qazi Taleh Camalov. Vətən sağ olsun.

**Prezident İlham Əliyev**: Gör, nə qədər medalı var. "Xocavənd", "Cəbrayıl", "Füzuli", "Fərqlənməyə görə", "Xarı bülbül".

**Qazi Taleh Camalov**: Bir ay döyüşdə oldum.

**Prezident İlham Əliyev**: Qəhrəmandır, bizim torpaqlarımızı azad edənlər bunun kimi qəhrəmanlardır.

**Qazi Taleh Camalov**: Sizin sayənizdə, Selçuk Bayraktar qardaşımızın sayəsində, onların silahlı PUA-larının sayəsində.

Səmada nümunəvi uçuşlar edən "Kızılelma" və "Akıncı" PUA-larını göstərən **Selçuk Bayraktar** dedi: "Kızılelma" və "Akıncı" bərabər uçurlar. Bu uçuş forması dünyada ilk dəfədir.

**Prezident İlham Əliyev**: "Akıncı" və "Kızılelma".

**Fulya Öztürk**: Nümunəvi uçuş edirlər.

***

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan "TEKNOFEST"in keçirildiyi məkandan ayrılarkən yenidən Fulya Öztürkün suallarını cavablandırıblar.

**Fulya Öztürk**: Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev hazırda "Togg" avtomobilindədirlər. "Togg"u idarə etmək necə hissdir?

**Prezident İlham Əliyev**: Gözəl, çox gözəl.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: Bu qızı tanıyırsan?

**Prezident İlham Əliyev**: Təbii ki, tanıyırıq. Bu, bizim qızdır. İkinci Qarabağ savaşında ən təhlükəli yerlərə gedən jurnalistdir. Bizimlə kədərləndi, bizimlə sevindi, Qələbəni də bizimlə qeyd etdi. Bu qız bizim qızımızdır.

**Əminə xanım Ərdoğan**: Maşallah, qəhrəmandır.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: Əsl vətənpərvərdir.

**Fulya Öztürk:** Biz qardaşıq.

**Prezident İlham Əliyev**: Bəli.

**Fulya Öztürk:** Cənab Prezident, necəsiniz? Sağlamlığınız necədir?

**Prezident Rəcəb Tayyib Ərdoğan**: Şükür olsun, çox yaxşıyam.

**Prezident İlham Əliyev:** Maşallah, hər kəsdən daha gözəl, cavan, gənc.

**Fulya Öztürk**: Cənab Prezident, Sizi yaxşı gördük, maşallah.

**Prezident Rəcəb Tayyib Ərdoğan**: Sağ ol.

**Fulya Öztürk**: Çox təşəkkür edirəm, yolunuz açıq olsun.

**Prezident İlham Əliyev**: Sağ ol.

***AZƏRTAC***

# Uğurlara görə təbriklər, təşəbbüslərə dəstək

**Xəbər verdiyimiz kimi, aprelin 27-28-də Türkiyənin paytaxtı Ankara şəhərində Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) XII Plenar İclası keçirilib. İclas Ankara Bəyannaməsinin qəbul olunması ilə başa çatıb.**

Ankara Bəyannaməsində Azərbaycan üçün bir çox vacib məsələlər öz əksini tapıb. Sənəddə bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və qarşılıqlı hörmət əsasında Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasına dəstək bir daha təsdiq olunur və bu prosesin Cənubi Qafqazda davamlı sülh, sabitlik və sülhün əldə olunmasında mühüm amil olacağına inam ifadə olunur.

Sənəddə həmçinin Ermənistandakı yurdlarından qovulmuş etnik azərbaycanlıların hüquqlarının bərpa edilməsi, onların beynəlxalq hüquqa uyğun olaraq doğma evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtması prosesinə dəstək ifadə olunur.

Bəyannamədə müharibədən sonrakı bərpa, yenidənqurma və reinteqrasiya səylərində Azərbaycan Respublikası ilə həmrəylik ifadə olunur, TÜRKPA-ya üzv və müşahidəçi dövlətlər bu prosesə öz dəstəyini və töhfəsini verməyə dəvət edilir.

Sənəddə siyasi müdrikliyi və rəhbərliyi ilə Azərbaycanın dövlətçilik və inkişaf tarixində silinməz iz qoymuş Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan olunması alqışlanır.

TÜRKPA-ya üzv dövlətlərin təmsilçiləri motivindən asılı olmayaraq, bütün forma və təzahürlərində terrorizmi birmənalı şəkildə pisləyir və terrorizmə qarşı güclü həmrəylik nümayiş etdirir, təhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsində parlamentlərin rolunu vurğulayır və üzv dövlətləri terrorizm, radikalizm, terrorizmə səbəb olan ekstremizm və separatizmə qarşı mübarizədə əməkdaşlığı genişləndirməyə və bu məqsədlə beynəlxalq forumlarda səyləri əlaqələndirməyə çağırır.

***Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***

# Səfər başa çatdı





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə İstanbula işgüzar səfəri aprelin 29-da başa çatıb.**

Hər iki ölkənin Dövlət bayraqlarının dalğalandığı İstanbulun Atatürk Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.

Azərbaycan Prezidenti İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğan yola saldılar.

***AZƏRTAC***

# Ümummilli liderin 100 illik yubileyi ilə əlaqədar ağacəkmə kampaniyası

**Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi, həmçinin ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələri ilə əlaqədar aprelin 29-da Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaxından dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirib. Eyni zamanda, Naxçıvan Muxtar Respublikası Prokurorluğu da ağacəkmə aksiyasına qoşulub.**





Baş Prokurorluğun mətbuat xidmətindən bildirilib ki, tədbir çərçivəsində Abşeron rayonu və Naxçıvan şəhəri ərazisində ümumilikdə 1600-dən çox zeytun və şam ağacları əkilib.

Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.

***

Müstəqil Azərbaycanın memarı və qurucusu ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Xarici İşlər Nazirliyi (XİN) tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə Bakının Müşfiqabad qəsəbəsində "Heydər Əliyev 100 – Yaşıl Gələcək" adlı ağacəkmə aksiyası təşkil olunub.

XİN-in Mətbuat xidməti idarəsindən bildirilib ki, tədbirin keçirilməsində əsas məqsəd ölkədə ekologiyanın qorunması və ətraf mühitin sağlamlaşdırılmasına hər zaman böyük əhəmiyyət vermiş ulu öndər Heydər Əliyevin əziz xatirəsini yad etmək, ümummilli liderin təbiətə, yaşıllıqlara qayğı ənənələrini davam etdirməkdən ibarət olub. Tədbir zamanı ərazidə Abşeron yarımadasının torpaq-iqlim şəraitinə uyğun 500 Eldar şamı və zeytun ağacı əkilib.

# Azərbaycan–Tatarıstan əlaqələri intensivləşdirilir

**Azərbaycan nümayəndə heyətinin Tatarıstana səfəri çərçivəsində Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası, biznes forum keçirilib, iqtisadi əlaqələrin intensivləşdirilməsinə dair müzakirələr aparılıb.**



Nazirlikdən bildirilib ki, İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyəti ilə Rusiya Federasiyasının Tatarıstan Respublikasının Rəisi Rüstəm Minnixanov arasında görüş keçirilib. Tərəflər Azərbaycanın Tatarıstanla iqtisadiyyatın müxtəlif sahələrində əlaqələrin inkişafı üçün geniş imkanların olduğunu qeyd edib, əməkdaşlığın gücləndirilməsi üçün görüləcək işlər barədə müzakirə aparıblar.

Kazanda Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəniyyət sahələrində əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın 3-cü iclası keçirilib.

İclas çərçivəsində Birgə Hökumətlərarası Komissiyanın həmsədrləri tərəfindən 3-cü iclasın yekunlarına dair Protokol imzalanıb. Sənəddə rəqəmsal iqtisadiyyat, elm, təhsil, gənclər, idman mədəni-humanitar, sosial və turizm sahələrində tərəfdaşlığın gücləndirilməsi nəzərdə tutulur.

Bundan başqa, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi ilə Tatarıstanın "Ximqrad" Texnopolisinin "İnnovativ Sənaye Parkı – Yüksək Texnologiyalar sahəsində Texnopark"ı arasında əməkdaşlığa dair memorandum imzalanıb.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***

# Böyük aksiyanın uğurlu nəticələri

## *Laçın–Xankəndi yolunda 138 gün davam etmiş ekoetiraza baxış*

**Azərbaycanlı ekofəalların və qeyri-hökumət təşkilatları təmsilçilərinin Laçın–Xankəndi yolunda ötən ilin dekabrın 12-də başlamış aksiyası 2023-cü il aprelin 28-də başa çatdı. Daha doğrusu, müvəqqəti dayandırıldı. Bir halda ki, Laçın–Xankəndi yolunun başlanğıcında, Azərbaycan–Ermənistan şərti sərhədində ölkəmizə məxsus nəzarət-buraxılışı məntəqəsi qurulur, deməli, aksiyanın qarşısına qoyduğu məqsədin reallaşması üçün ciddi təminat mövcuddur.**

Bəs, 138 gün davam etmiş etirazın nə kimi əhəmiyyəti oldu? Söhbətimiz bu barədədir. İnsanlarımız arasında böyük aksiya kimi qiymətləndirilmiş hadisənin doğurduğu reallıqlar haqqında da bəzi məqamları vurğulayacağıq.

Əvvəla ondan başlayaq ki, ölkəmizin nəinki müstəqillik dövründə, ümumən, tarixində analoqu olmayan bu aksiya, həm də unikal dirəniş forması idi. Dirənişin konkret məqsədi var idi: Azərbaycan torpaqlarında ekoloji terrora, talançılığa son qoyulsun! “Qızılbulaq” və “Dəmirli” yataqlarının qanunsuz istismarı dayandırılsın! Dövlət qurumlarımızın təmsilçilərinin, mütəxəssislərimizin sözügedən mədənlərdə monitorinq aparmalarına şərait yaradılsın! Hər şey bu qədər sadə idi. Ancaq sadəlikdə xeyli mürəkkəbliklər də var.




**Birincisi,** 138 gün davam etmiş etiraz aksiyası göstərdi ki, Azərbaycan dövləti və cəmiyyəti eyni amal uğrunda mübarizə aparmaq əzmindədir. Bu, xalq-hakimiyyət birliyinin, vəhdətinin müstəsna təcəssümü idi. Xalq hakimiyyətə dəstək verdi, hakimiyyət isə xalqa.

**İkincisi,** Laçın–Xankəndi yolundakı aksiya 44 günlük müharibədən sonra Azərbaycan cəmiyyətinin Qarabağ əzmini ifadə edən son dərəcə böyük hadisə idi. Sübut olundu ki, bu əzm böyük hədəfləri və uzaq məsafələri də aşmağa qadirdir.

**Üçüncüsü,** aksiya cəmiyyətimizin Qarabağ müstəvisindəki siyasi spekulyasiyalara münasibətdə barışmazlığının ifadəsinə çevrildi. Ölkəmizdə hər kəsin qəlbi Laçın–Xankəndi yolundakı aksiya ilə bağlı döyündü. Hər bir azərbaycanlı əraziyə can atdı.

**Dördüncüsü,** bu aksiya Azərbaycanın Qarabağa sahiblənmək istəyindəki hərtərəfliliyi nümayiş etdirdi. Yəni, “torpaq mənimdir!” ənənəvi klişesindən uzaqlıq əsas götürüldü. Nəzərə alaq ki, torpağın, yurdun xalqa, topluma məxsusluğunun təsdiqlənməsi, həm də həmin əraziyə münasibət amilini doğurur. Biz dünyaya sübut etdik ki, bölgəmizin problemlərinə–ekoloji durumuna biganə deyilik.

Onu da nəzərə alaq ki, ekologiyanın qorunması və ətraf mühitin mühafizəsi bəşəri məsələdir. Xalqımız göstərdi ki, bu məsələyə yanaşmamızda bütövlüyümüz, həssaslığımız var və bu xarakterimizdən irəli gələn tədbirləri, həm də müqəddəs vəzifə kimi qəbul edirik.

**Beşincisi,** aksiyaya qədər Azərbaycan cəmiyyətində, ictimiyyətin müxtəlif təbəqələri arasında Ermənistan hakimiyyəti, Qarabağdakı separatçı rejim və bölgəyə, 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın şərtlərinə əsasən, yerləşdirilmiş Rusiya sülhməramlıları arasında bir bağın olduğuna dair təsəvvür var idi. Bu birləşmə 44 günlük müharibədən sonra Azərbaycanın regionda formalaşdırdığı reallıqlara münasibətdə, bir növ, demarş xəttini tutmuşdu. Yəni, müəyyən mənada, belə bir görüntü var idi.

Təbii, bu qənaət insanlarımızda hiddət doğururdu. Laçın–Xankəndi yolundakı aksiya belə mənfi stereotipləri sıradan çıxardı. Çünki, ilk növbədə, yuxarıda vurğuladığımız “işbirliyinə” kökündən zərbə vuruldu. Azərbaycanlı fəalların açıq-açığına, soyuq, şaxta, qar demədən, etiraz bildirmələri haylara tutarlı cavab idi. Onlar məcbur qalıb başlarını samanlıqdan çıxardılar.

**Altıncısı,** böyük aksiya Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından əhəmiyyətli missiya daşıdı. Ancaq proses bir qədər fərqli getdi. Məlum olduğu kimi, Ermənistan Laçın yolunun blokadası, Qarabağ erməniləri üçün humanitar fəlakət, etnik təmizləmə “məntiqinə” baş vurdu və dünyaya bu sayaq cəfəng baxışlarla car çəkdi. Məhz mövcud xüsusda ölkəmiz tərəfindən atılmış əks addımlar, Qarabağ mövzusuna, Azərbaycan–Ermənistan münaqişəsinin nizamlanmasına beynəlxalq diqqətin güclənməsini şərtləndirdi. Nəticədə erməni yalanlarının ifşası istiqamətində əlavə platformalar qazandıq.

**Yeddinci məqam.** Böyük aksiyanın doğurduğu ictimai nəzarət mühiti nəticəsində Ermənistan, necə deyərlər, əlindəki kartları açmağa məcbur qaldı. Əgər aksiyayadək İrəvan separatçı rejimə dəstək məqsədilə Laçın–Xankəndi yolu vasitəsilə qanunsuz daşımalar reallaşdırırdısa, fəallarımızın etirazı nəticəsində bu çəmbər daraldı. Kartlar isə qanunsuz daşınmalar üçün alternativ torpaq yollar axtarışı zamanı açıldı. Deməli, İrəvanın üçtərəfli bəyanatın şərtlərini yerinə yetirməkdən boyun qaçırmaq naminə etdiyi hərəkətlər də çılpaqlığı ilə üzə çıxdı.

**Səkkizinci məqam** birbaşa Qarabağdakı Rusiya sülhməramlılarının fəaliyyəti ilə bağlıdır. Məlumdur ki, aksiyanın tələblərindən biri də rus sülhməramlı kontingentinin komandanı Andrey Volkovla görüş idi. O da məlumdur ki, Volkov separatçılarla əlbir idi və buna görə ikincilər dövlət qurumlarımızın nümayəndələrini, o cümlədən, ekologiya üzrə mütəxəssislərimizi “Qızılbulaq” və “Dəmirli” yataqlarına buraxmayanda, onların yollarını kəsəndə hər hansı tədbir görməmişdi. Bu fəaliyyətsizlik, heç şübhəsiz, vardanyanlara və onun başıpozuqlarına birbaşa dəstək idi. Aksiya bu sayaq “dəstək” cəhdlərini faş etdi. 138 gün davam edən etiraz onu da göstərdi ki, Qarabağ kimi həssas bölgədə sülhməramlı missiyası yerinə yetirməyə mükəlləf tərəf öz məsuliyyətini anlamalıdır.

Bəli, məsuliyyətini anlamayan Volkov komandanlıqdan uzaqlaşdırıldı. Onun yerinə gələn Aleksandr Lentsov nə ilə yadda qalacaq, bunu zaman göstərəcək. Hər bir halda, Rusiya sülhməramlıları fəaliyyətlərinə çəki-düzən verməlidirlər. Nəzərə alınmalıdır ki, Qarabağdakı separatçılıq üçün çəmbər daraldıqca, onlar üçün də eyni aqibət görünməkdədir.

**Doqquzuncu** məqama keçid alaq. Əlbəttə, Laçın–Xankəndi yolundakı aksiya Qarabağ mövzusunda bir sıra gedişatlara təsir göstərdiyi kimi, mövcud müstəvidəki oyunları da pozdu. Məlum olduğu kimi, ötən ilin sentyabrında Qarabağda qəflətən Ruben Vardanyan adlı keçmişi və indisi kriminal olan bir ünsür peyda oldu. Bu ünsür separatçı rejimdə “dövlət naziri” kimi oyuncaq posta gətirildi. O, “səlahiyyət” əldə edər-etməz, Azərbaycan–Ermənistan danışıqlarının Qarabağ seqmenti nöqteyi-nəzərdən, öz aləmində, yeni qaydalar qoymağa başladı.

“Qarabağ xalqı” deyimini gündəmə gətirən Ruben bəyanatları ilə elə görüntü formalaşdırdı ki, sanki, danışıqlarda qazanılmış bütün nəticələri təhdid etmək potensialına malikdir. Bir sözlə, qənaət bu idi ki, Vardanyan hərbə-zorbalığına salıb heç nəyi qəbul etməyə bilər. Bir halda ki, “qladiator Vardanyan” həyasızlıqla qurşaqdan aşağı davranmağı məqbul sayırsa, “Qarabağ xalqının iradəsi”ni populizm predmetinə çevirib siyasi manipulyasiya yolu tutursa, ona qarşı əsl xalq müqavimətinin necə olmasını göstərmək lazım idi. Sual olunur: aksiyaya toplaşanlar daha qüdrətli oldu, yoxsa Vardanyanın başıpozuqları? Sualımız ritorikdir. Çünki qalib tərəf birincilərdir. Birincilər həm də ona görə qalibdirlər ki, onlar, məhz, Moskvada hazırlanmış “planı” pozdular. Vardanyanın onsuz da çirkli reputasiyası daha da zədələndi, onun siyasətçiyə çevrilmək cəhdləri bambılılıq elementləri ilə müşayiət olunmağa başlandı. Nəhayət, Vardanyan da tutduğu oyuncaq postla üzülüşməli oldu.

**Onuncu və sonuncu** məqamdan söz açaq. Əvvəldə də bildirdik ki, böyük aksiya müvəqqəti dayandırılıb. Əlbəttə, Laçın–Xankəndi yolundakı sərhəddə nəzarət-buraxılış məntəqəmiz varsa, bu dayanma müvəqqəti olmaya da bilərdi. Ancaq bölgədə Rusiya sülhməramlıları da qalmaqdadır. Nəzərə alsaq ki, Qarabağda qanunsuz erməni hərbi birləşmələri də var, o zaman torpaqlarımızda ekoloji terrorun davam etmə təhlükəsi də sovuşmayıb. Risk ehtimalının olmaması üçün həmin qanunsuz birləşmələr ərazini tərk etməlidirlər ki, bunun qarantı rolunda çıxış edəcək qüvvə, məhz, sülhməramlılardır. Deməli, Qarabağın ekoloji durumuna cavabdeh də məhz onlardır. Və belə düşünmək mümkündür ki, ikinci dəfə aksiya başlasa, bu dəfə tələb Rusiya sülhməramlılarının bölgədən çıxarılması olacaq. Erməni terrorçularını Qarabağdan çıxarmağın yolunu özümüz də bilirik.

***Ə.CAHANGİROĞLU, “Xalq qəzeti”***

# Haqq işimizə dünya dəstəyi

**Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər təkcə regionda yeni reallıqlar yaratmayıb, həm də dünya dövlətlərinin ictimai-siyasi, akademik dairələrində, ekspertlər, parlament üzvləri arasında ölkəmizin haqq işini dəstəkləyənlərin sayının artmasına səbəb olub. Son vaxtlar beynəlxalq mediada ölkəmizlə bağlı pozitiv ruhlu məqalələrin sayında da artım nəzərə çarpır. Ermənistanın hərbi cinayətlərinə həsr olunmuş belə bir məqalə bu günlərdə Kolumbiyanın “Al Press” xəbər agentliyində dərc olunub.**

“Alçaqlığın cəzasız qalması” başlıqlı məqalədə sosial şəbəkələrdə silahsız Azərbaycan əsgərinin işgəncəyə məruz qoyulmasını göstərən video və fotogörüntülər yayılmasının hiddət doğurduğu bildirilir. Qeyd olunur ki, insanlıqdan çıxmış erməni quldurlarının əlverişsiz hava şəraitində yolu azaraq əsir düşmüş azərbaycanlı hərbi qulluqçulara qarşı törətdikləri beynəlxalq humanitar hüquqazidd belə vəhşi əməllər qəbuledilməzdir və dünya ictimaiyyəti tərəfindən birmənalı şəkildə pislənilməlidir.

Məqalədə İşgəncə və digər qəddar, qeyri-insani, ləyaqəti alçaldan rəftar və ya cəza əleyhinə Konvensiyanın müddəalarını kobud şəkildə pozan erməni canilərinin cəzasız qalmalarının onları daha da cəsarətləndirdiyi və azərbaycanlılara qarşı etnik nifrət və irqi ayrı-seçkiliyin ən yüksək həddə çatdığı təəssüflə bildirilir. Həmçinin erməni vəhşiliyinin cəzasız qalması nəticəsində bu gün də hərbçilərin və dinc insanların mina terrorunun qurbanına çevrildiyinə diqqət çəkilir. Xüsusi vurğulanır ki, beynəlxalq ictimaiyyət sülhə can atan Azərbaycana qarşı ermənilər tərəfindən törədilmiş hüquqazidd əməllərin cəzasız qalmasına son qoyulmasını tələb etməlidir.

***

Ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycan informasiya blokadasında idi. Ölkəmizin ərazi bütövlüyü təcavüzə məruz qalmaqla, bir milyon qaçqın və məcburi köçkünün olması ilə yanaşı, həm də erməni lobbisinin apardığı kampaniya nəticəsində beynəlxalq mediada gedən qərəzli yazıların hədəfinə çevrilmişdi. Tam bir informasiya blokadası hökm sürürdü. Məhz bu blokadanın nəticəsi kimi ABŞ Konqresi erməni lobbisinin təşəbbüsü ilə 1992-ci ildə Azadlığa Dəstək Aktına 907-ci düzəlişi qəbul etmişdi. Bununla da iqtisadi imkanları zəif olan, üstəlik, böyük qaçqın və məcburi köçkün “ordusu” ilə üzləşmiş ölkəmiz ABŞ-ın birbaşa dövlət yardımından məhrum olmuşdu.




**Ekspert rəyi**



**Müşfiq ƏLƏSGƏRLİ, Jurnalistlərin Həmkarlar İttifaqının sədri**

–2020-ci ilədək dünyada əsasən erməni şəbəkəsi tərəfindən verilən informasiyalara istinad olunub. Yəni, tendensiya bundan ibarət olub. Ermənilərin yaydığı informasiyalar yalan da olsa, diqqətə alınıb və transmilli media subyektlərində tirajlanıb. 2020-ci ildən sonra tendensiya dəyişib. Həmin il Azərbaycan təkcə döyüş meydanında deyil, həm də informasiya savaşında Ermənistana qalib gəlib. Bundan sonra dünyada ictimai rəy formalaşdıran transmilli media informasiya paylaşanda balansı qorumağa üstünlük verir. Düzdür, burada balansı pozanlar da var. Azərbaycana qarşı birmənalı şəkildə qərəzli siyasət aparan ölkələrin mediası adətən bu cür davranır.

Azərbaycanla, ümumiyyətlə, regionla bağlı balanslı informasiyanın verilməsi tendensiyası 2022-ci ildən sonra daha da güclənib. 2023-cü ildə baş verən hadisələr göstərdi ki, dünya mediası nəinki balanslı informasiya təqdim etməyə, artıq həqiqəti verməyə çalışır. Məsələn, Dığ kəndində baş verən erməni təxribatına, İrəvanda Azərbaycan Bayrağının yandırılmasına, nəhayət, əsir düşmüş azərbaycanlı hərbçilərlə qarşı qəddar davranış məsələsinə, yaxud Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin qoyulması ilə bağlı informasiyalara baxdıqda görürik ki, burada dünya mediası nəinki balanslı, əksinə, Azərbaycanın xeyrinə informasiyalar verməyə çalışdı. Bu baxımdan, Kolumbiya mediasında dərc olunan yazıda Azərbaycanın haqlı mövqeyinin ifadə olunması mövcud reallığın əksidir. Yəni, Azərbaycan son illərdə informasiya savaşında da erməni şəbəkəsini üstələyir. Beləliklə, son hadisəni Azərbaycanın informasiya siyasətində növbəti uğurlu addımı kimi qiymətləndirmək olar. Kolumbiya mediasında dərc olunan məqaləni son beş ildə Azərbaycanda informasiya sahəsində aparılan ciddi islahatlar kontekstində də izah etmək mümkündür.

Ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində də mühüm addımlar atıldı. Ulu öndər səfər etdiyi ölkələrin hamısında rəsmi görüşlərdən əlavə, o ölkələrin media subyektləri ilə də görüşlərə xüsusi önəm verir, çıxış etdiyi auditoriyalarda işğal xəritəsini nümayiş etdirərək, əslində, təcavüzə məruz qalan tərəfin Azərbaycan olduğunu diqqətə çatdırırdı. Ümummilli lider bu məsələdə mətbuatın rolunu yüksək qiymətləndirirdi.

Prezident İlham Əliyevin göstərişi ilə 2004-cü ildən informasiya müharibəsində müdafiədən hücum diplomatiyasına keçilməsi vəzifəsinin irəli sürülməsi bu sahədə əsaslı dönüşün baş verməsinə gətirib çıxardı. Məhz hücum diplomatiyasının elan olunması sayəsində 1993-cü ildən sonrakı dövrdə ilk dəfə 2009-cu ilin martın 30-da BMT Baş katibinin Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı hesabatı yayıldı. Bundan əlavə, Qoşulmama Hərəkatında, İslam Əməkdaşlıq Təşkilatında, Avropa Şurasında, Avropa İttifaqında, NATO-da, İqtisadi Əməkdaşlıq Təşkilatında, Türk Dövlətləri Təşkilatında və Demokratiya və İqtisadi İnkişaf Naminə Təşkilatda (GUAM) Azərbaycanın haqq işini dəstəkləyən sənədlər qəbul edildi.

Prezident İlham Əliyev müxtəlif beynəlxalq təşkilatların bütün sammitlərində Azərbaycanın haqlı səsinin dünyaya çatdırılmasında, Ermənistanın işğalçılıq siyasətinin ifşa olunmasında böyük xidmətlər göstərib. Davos İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı, Valday Diskussiya Klubu və digər beynəlxalq tədbirlərdə, debatlarda Azərbaycanın ərazi bütövlüyünün ermənilər tərəfindən pozulduğunu və ölkəmizin bununla heç vaxt barışmayacağını iştirakçıların diqqətinə çatdırıb. Cənab İlham Əliyev rəsmi Bakının həmişə sülh tərəfdarı olduğunu, ancaq torpaqlarımızın dinc yolla qaytarılmayacağı təqdirdə müharibəni də istisna etmədiyini dəfələrlə vurğulayıb. Bütün bu gərgin fəaliyyətlər nəticəsində, hücum diplomatiyası sayəsində informasiya savaşında vəziyyətin Azərbaycanın xeyrinə dəyişməsinə nail olunub. Azərbaycandan 12,5 min kilometr uzaqda yerləşən Cənubi Amerikada – Kolumbiya mediasında bugünlərdə dərc olunan məqalə də bunun bariz göstəricisidir. Bu xüsusda aprelin 24-də Rusiyanın nüfuzlu “Kommersant” qəzetində dərc olunmuş məqaləni də yaddan çıxarmaq olmaz. Azərbaycanın Laçın–Xankəndi yolunda yaratdığı sərhəd nəzarət-buraxılış məntəqəsi ilə bağlı “Ermənistan fakt qarşısında qoyuldu” sərlövhəli məqalə erməni diaspor və lobbisinin üstünlük təşkil etdiyi Rusiya mediasında haqq işimizin çatdırılması baxımından önəm daşıyır. Həm Rusiyanın nüfuzlu qəzetində, həm də Kolumbiya mediasında dərc olunan məqalə ölkəmizin mövqelərinin güclənməsinin daha bir sübutudur.

***Səxavət HƏMİD, “Xalq qəzeti”***

# Rəsmi İrəvanın “diversant” oyunu

Məlum olduğu kimi, aprelin əvvəllərində Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində dumanlı havada ordumuzun iki əsgəri – 2004-cü il təvəllüdlü Aqşin Qabil oğlu Bəbirov və 2003-cü il təvəllüdlü Hüseyn Əhliman oğlu Axundov itkin düşüb. Hadisədən qısa müddət sonra hər iki hərbçimiz ermənilər tərəfindən əsir götürülüb, onlara qarşı saxta ittihamlarla cinayət işi açılıb.

Əsir götürüldükləri ilk gündən erməni mediasında yer alan fotolardan hərbçilərimizə ağır işgəncələr verildiyi məlum oldu. Bu, Azərbaycanla yanaşı, bəzi dövlətlər və beynəlxalq qurumlar tərəfindən də sərt qınaqla qarşılandı. Lakin hadisənin üstündən xeyli keçməsinə baxmayaraq, rəsmi İrəvan əsirlərin azad edilməsi ilə bağlı heç bir addım atmayıb. Əksinə, əsirlərimizə qarşı açılan qurama cinayət işləri İrəvanın yeni məkirli planlarından xəbər verir.

### Qanunsuz həbsə hüquqi don geyindirmək cəhdi

Hər iki hərbçimizin Ermənistan ərazisinə dumanlı hava səbəbi ilə yolu azaraq keçməsi faktı ortada olsa da, İrəvan bu hadisəyə cinayət donu geyindirməyə, əsgərlərimizə “diversant” damğası vurmağa çalışır. Təsadüfü deyil ki, hadisədən qısa müddət sonra Ermənistan tərəfi hərbçilərimiz barədə dövlət sərhədini qanunsuz keçmək və odlu silah-sursat daşımaqda ittiham edərək onlara qarşı cinayət işi qaldırıb.

Bəs Ermənistanın aydın həqiqəti görməzdən gələrək hərbçilərimizə qarşı qondarma cinayət işi açmaqda məqsədi nədir? Aydındır ki, məqsəd hərbçilərimizin qanunsuz həbsini hüquqi baxımdan əsaslandırmağa çalışmaq, etdikləri cinayətə qanuni don geyindirmək arzusudur. Halbuki, bu cinayət işinin qurama olduğu, siyasi amillərə əsaslandığı ortadadır.

### Əsirlərimizin durumu necədir?

İndiki məqamda Azərbaycanı narahat edən əsas məqamlardan biri əsirlərimizin sağlamlıq vəziyyəti, onlara göstərilən münasibətdir. Təəssüflər olsun ki, vəhşi erməni xisləti, hərbçilərimizin əsir götürüldüyü zaman gördükləri işgəncələr bu məsələdə optimist olmağa əsas vermir. Doğrudur, Beynəlxalq Qırmızı Xaç Komitəsinin nümayəndələri əsir hərbçilərimizlə görüşə biliblər. Əsirlərdən Hüseyn Axundovun məktubu da Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən onun ailəsinə çatdırılıb. Lakin bu faktın özü də Ermənistanın əsir hərbçilərimizlə beynəlxalq qanun və konvensiyalar çərçivəsində davranması məsələsində nikbin olmaq üçün yetərli deyil. Çünki Beynəlxalq Qırmızı Xaç Komitəsinin prosedurlarına əsasən, əsirlərə baş çəkən zaman saxlanma şəraiti və onlara göstərilən rəftarla bağlı müşahidə və tövsiyələr yalnız əsirin saxlandığı dövlətin nümayəndələrinə bildirilir. Bu baxımdan, əsirlərimizin yeni işgəncələrə məruz qalıb-qalmadıqlarını Beynəlxalq Qırmızı Xaç Komitəsi vasitəsilə də müəyyənləşdirmək mümkün deyil. Ermənistan ombudsmanının azərbaycanlı əsirlərin saxlanma şəraiti ilə bağlı səsləndirdiyi “tərifnamə”yə gəlincə, bu gülünc açıqlamanı İrəvanın özünüifşası kimi də qiymətləndirmək mümkündür. Çünki Ermənistan ombudsmanı azərbaycanlı əsirlərin saxlanma şəraiti və onlara olan münasibəti elə ideallaşdırıb ki, onun təqdim etdiyi mənzərə, sadəcə, bu gün deyil, onillər sonra da erməni əsgərləri üçün xəyal olaraq qalacaq.

### Hökmən azad ediləcəklər

Ermənistanın əsir əsgərlərimizlə bağlı hansı niyyət güdməsindən, onları hansı maddələrlə şərləməyə çalışmasından asılı olmayaraq, Azərbaycanın öz hərbçilərini erməni əsirliyindən azad edəcəyi şəksizdir. İndiki məqamda bu, dövlətimizin, əlaqədar qurumların qarşısında duran ən ümdə vəzifələrdən biridir. Xatırladaq ki, Azərbaycan Ombudsmanı Səbinə Əliyeva əsir hərbçilərin valideynləri ilə görüşündə bildirib ki, hərbi qulluqçuların qanunsuz həbsi, eləcə də onların qeyri-insani rəftarla üzləşməsi faktı ilə bağlı bütün aidiyyati qurumlara müraciət edilib. S.Əliyeva onu da qeyd edib ki, əsir hərbçilərimizin azad edilərək Azərbaycana qaytarılması istiqamətində zəruri tədbirlər görülür. Bu fakt bir daha sübut edir ki, Azərbaycan dövləti əsir hərbçilərin Vətənə qaytarılması istiqamətində bütün imkanlardan istifadə edir və yaxın gələcəkdə öz məqsədinə nail olacağı şübhəsizdir.

***Seymur ƏLİYEV***

# Müstəqil dövlətimiz Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir



**Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra respublikamızda bir müddət sanki durğunluq, çaşqınlıq yarandı. Uzun illər SSRİ-nin əsarətində qalmış respublikalar, o cümlədən, Azərbaycan istiqlaliyyət əldə etdikdən sonra yeni həyata nədən və necə başlamaq sualına cavab tapmaqda aciz qalan o vaxtkı ölkə rəhbərliyi hələ də sovet qanunlarından, köhnə rejimdən əl çəkə bilmirdi. Dövlət idarəçiliyindəki naşılıq özünü açıq şəkildə büruzə verirdi. Respublikada yaranmış özbaşınalıq və getdikcə baş alıb gedən anarxiyadan istifadə edən bəzi oliqarxlar ətraflarına topladıqları qeyri-qanuni silahlı birləşmələr vasitəsilə hakimiyyəti ələ keçirmək üçün min bir fitnə-fəsada əl atırdılar. Mərd oğul və qızlarımızın canı, qanı bahasına qazanılmış müstəqiliyimiz məhv olmaq həddinə çatırdı. Bir tərəfdən də Azərbaycanın müstəqilliyini gözü götürməyən qüvvəllər daxili qruplaşmalarla əlbir olub öz çirkin niyyətlərini həyata keçirməklə, ölkəmizi özlərindən asılı vəziyyətə salmaq istəyirdilər.**

Belə çətin və ağır məqamda gündən-günə dərinləşən siyasi böhranın qarşısının alınması və müstəqiliyimizin qorunub saxlanılması üçün xalq ulu öndər Heydər Əliyevə müraciət etdi. Ulu öndər xalqın müraciətinə hörmətlə yanaşdı və Vətənə, xalqa, millətə olan sonsuz sevgisi sayəsində ömrünün qalan hissəsini Azərbaycanın tərəqqisinə sərf etdi. Ölkə ziyalıları, tanınmış ictimai-siyasi, mədəniyyət və incəsənət xadimləri çox yaxşı bilirdilər ki, respublikanı düçar olduğu bəladan yalnız Heydər Əliyev xilas edə bilər. Çünki dahi şəxsiyyət dünyada çox böyük nüfuz sahibi idi, eyni zamanda, dövlət idarəçiliyində zəngin təcrübəsi var idi.

Ümummilli lider Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı respublikada müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına, hüquqi, sivil, dünyəvi dövlətin yaradılmasına şərait yaratdı. Ulu öndərin qarşıya qoyduğu prioritet vəzifələrdən biri də Azərbaycanın düşünülmüş xarici siyasəti, nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq etmək və həmin qurumların üzvü olmaq idi. Heydər Əliyev bu məqsədini reallaşdırmaq üçün Azərbaycanın xarici siyasət kursunda əsaslı dəyişiklik etdi.

Müstəqilliyin ilk illərində Azərbaycanda hakimiyyətdə olan dairələr bu istiqamətdə heç bir iş görə bilməmiş,vəziyyəti daha da pisləşdirmişdilər. Heydər Əliyevin xarici siyasətində Azərbaycanın elmini, mədəniyyətini, tarixini dünyada tanıtmaq, xarici dövlətlərlə bərabərhüquqlu Azərbaycanın mənafeyinə xidmət edən əlaqələr yaratmaq mühüm yer tuturdu. Heydər Əliyev öncə, qonşu ölkələrlə münasibətləri qaydaya salmaq məqsədi ilə qarşılıqlı iqtisadi, siyasi cəhətdən sıx əməkdaşlıq yaratmağa başladı. Təbii ki, bu, gənc, müstəqil Azərbaycanın xarici siyasətində çox zəruri məsələ idi.

1993-cü il sentyabrın 20-də Azərbaycanın MDB-yə daxil olması, Alma-Ata Bəyənnaməsi, Kollektivlik təhlükəsizlik haqqında müqavilə imzalanması mühüm əhəmiyyət kəsb edirdi. O zaman MDB-yə daxil olmaq, çox düzgün və zəruri qərar idi. Çünki bu birlik Azərbaycanı həmin dövlətlərlə iqtisadi, siyasi, mədəni inkişafda irəliyə aparacaq əməkdaşlığı genişləndirəcəkdi.

Heydər Əliyevin siyasəti nəticəsində Rusiya ilə olan münasibətlər yenidən bərpa olundu. Artıq Rusiya Azərbaycana bir çox məsələlərdə dəstək olurdu. Rusiya Prezidenti Vladimir Putinin Azərbaycana rəsmi səfəri və ölkələrimiz arasında iqtisadi, mədəni inkişafı bərpa etmək üçün imzalanmış bir sıra sənədlər bu siyasətin uğurundan xəbər verirdi. İki ölkə arasındakı dostluq münasibətləri getdikcə bütün sahələri əhatə edirdi. Bunun nəticəsi olaraq, 2003-cü ildə Vladimir Putin Heydər Əliyevi Azərbaycan və Rusiya arasındakı münasibətlərin inkişafındakı xidmətlərinə görə Rusiyanın ən yüksək dövlət mükaftı – "Andrey Pervozvannı" ordeni ilə təltif etdi.

Azərbaycanın Cənub qonşusu İranla da münasibətlərin yaxşılaşdırılmasında da imkanlardan istifadə edildi. 1993–1994-cü illər Heydər Əliyevin Tehrana, İran Prezidentinin Azərbaycana rəsmi səfərləri ölkələrimiz arasında iqtisadi, siyasi və mədəni əlaqələrin möhkəmləndirilməsində böyük rol oynadı. Bu danışıqlarda Xəzərin status məsələsi öz əksini tapmışdır.

Azərbaycan və Türkiyə münasibətləri də getdikcə yeni mərhələyə qədəm qoyurdu. 1994-cü ilin fevralında Heydər Əliyev Türkiyəyə səfəri zamanı iki ölkə arasında münasibətlərin yaxşılaşdırılmasını vacib hesab edərək demişdir: "Türkiyə və Azərbaycan qardaş dövlətdir". Azərbaycan müstəqillik qazanan zaman, bu müstəqilliyi ilk tanıyan dövlət Türkiyə olmuşdur. Heydər Əliyevin apardığı siyasətdə Türkiyə ilə münasibətlər "Bir millət, iki dövlət" prinsipinə əsaslanmışdır.

Ulu öndərin xarici siyasətində əsas istiqamətlərdən biri də Azərbaycanın dünyanın mötəbər təşkilatları ilə əməkdaşlıq etməsi və həmin qurumların üzvü olması idi. Bununla da Azərbaycan öz mövqeyini – demokratik dövlət qurmaq niyyətini dünyaya bəyan etdi. Heydər Əliyevin sayəsində Azərbaycan bir sıra nüfuzlu təşkilatlara üzv seçildi. 1992-ci il martın 2-də Azərbaycan dünyanın ən mötəbər təşkilatı olan BMT-yə üzv seçilsə də, bu qurumla əməkdaşlıq istənilən səviyyədə deyildi. 1994 və 1995-ci illərdə BMT Baş Assambleyasının 49-cu və 50-ci sessiyasında Heydər Əliyev Azərbaycan Respublikasının nümayəndə heyətinə başçılıq etdi. O, həmçinin 2000-ci il sentyabr ayında BMT-nin Minillik Zirvə toplantısında iştirak etdi. Ulu öndərin rəhbərliyi ilə Azərbaycan BMT-nin bir çox xüsusi qurum və orqanları ilə fəal və səmərəli əməkdaşlığa başladı. Onların sırasında BMT-nin İnkişaf Proqramı (BMT İP), BMT-nin Qaçqınlar üzrə Ali Komissarı, BMT-nin uşaq Fondu, BMT-nin Təhsil, Elm, və Mədəniyyət Təşkilatı, Sənaye İnkişaf Təşkilatı, Ümumdünya Səhiyyə Təşkilatı, BMT-nin Qadınlar Fondu, Atom Enerjisi üzrə Beynəlxalq Agentlik, Nüvə Sınaqlarının Hərtərəfli Qadağan Olunması Haqqında Müqavilə Təşkilatı və digərləri var idi.

Azərbaycanın üzv seçildiyi təşkilatlardan biri də ATƏT idi.1995-ci ilə yanvarın 1-ə qədər bu qurumun adı ATƏM olub. Sonra adı dəyişdirilərək bu təşkilat ATƏT oldu. Bu, Azərbaycanın ilk qəbul olunduğu Avropa təşkilatı idi. Azərbaycanın xarici siyasətinin əsas üstünlüklərindən birini Avropa İttifaqı (Aİ) ilə əməkdaşlıq təşkil edir. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın strateji mövqeyi Aİ-nın üzv dövlətlərinin Azərbaycanla siyasi və iqtisadi münasibətləri inkişaf etdirmə marağını artırır. Əsası ulu öndər tərəfindən qoyulan bu əməkdaşlıq bu gün də davam etdirilir.

Azərbaycanın nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlığı sırasında NATO-nun da olması ölkəmizin demokratik prinsiplərin inkişafına xüsusi önəm verməsindən irəli gəlirdi. 1994-cü il mayın 3-4 də Belçikaya rəsmi səfəri zamanı ulu öndər Heydər Əliyev NATO-nun Brüsseldəki Mənzil Qərargahında bu qurumun Sülh Naminə Tərəfdaşlıq Proqramına qoşulmaq haqda sənədi imzaladı. Bununla Azərbaycan NATO ilə genişmiqiyaslı əməkdaşlığı nəzərdə tutan Sülh Naminə Tərəfdaşlıq Proqramını imzalamış 15 dövlətdən biri oldu.

Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı Ermənistanın işğalçılıq siyasətinin dünyaya nümayiş etdirlməsində mühüm rol oynayırdı. Heydər Əliyev beynəlxalq təşkilatların tədbirlərində, həmçinin həmin qurumların nümayəndələri ilə görüşlərində Ermənistanın hərbi təcavüzü barədə geniş məlumat verir, erməni yalanlarını ifşa edir, düşmənin informasiya blokadasını yarırdı. Bundan başqa, müxtəlif ölkələrdə Azərbaycanın səfirliklərinin açılması da xarici siyasətin uğurları idi.

Azərbaycan Avropanın bir hissəsi olaraq, dünyada gedən demokratik proseslərdən kənarda qala bilməzdi. Məhz bu baxımdan ulu öndər siyasi islahatları heç də Avropa Şurasına üzv olmaq üçün həyata keçirmirdi. Heydər Əliyev bu islahatlarla xalqın iradəsinə uyğun siyasət aparırdı. Bu da Avropanın diqqətini cəlb etməyə bilməzdi. Bu islahatlardan sonra Azərbaycan dünya dövlətləri tərəfindən etibarlı tərəfdaş kimi qəbul edilirdi. 1996-cı ilin iyununda Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Bürosu rəsmi Bakının demokratiya yolunda atdığı addımları dəyərləndirərək, Azərbaycana "xüsusi dəvət edilmiş qonaq" statusu verilməsi haqqında qərar qəbul etdi. Azərbaycan bununla da bu qurumun sessiyalarında iştirak edərək keçmiş Dağlıq Qarabağ problemini qaldırmaq imkanı qazandı.

1996-cı ilin iyul ayında Prezident Heydər Əliyev Avropa Şurası baş katibinin adına məktub göndərərək, Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunmaq və digər üzv dövlətlər kimi İnsan Hüquqları və Azadlıqları Haqqında Avropa Konvensiyasına qoşulmaq arzusunda olduğunu bildirdi. Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar Heydər Əliyevin uzaqgörən siyasətinin və bu istiqamətdə aparılmış məqsədyönlü fəaliyyətinin nəticəsi idi. Həmin il yanvarın 25-də ulu öndərin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirildi və dövlətimizin üçrəngli bayrağı inkişaf etmiş demokratik dövlətlərin bayrağı ilə bir sırada dalğalandı. Heydər Əliyev bu qürurverici mənzərəni yüksək qiymətləndirərək demişdir: "Azərbaycanın Avropa Şurasına qəbul edilməsi onun nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır".

Azərbaycanın Qərbə inteqrasiyası istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu.

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan xarici siyasətin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Azərbaycanı dünyada söz sahibinə çevirib. Hazırda regionda və dünyada baş verən siyasi-iqtisadi proseslərdə Azərbaycan dövləti layiqincə təmsil olunur, öz mövqeyini bildirir və mənafelərini qoruyur. Məhz bu siyasətin uğurudur ki, bu gün dünyanın aparıcı dövlətlərinin, nüfuzlu beynəlxalq təşkilatların diqqəti Azərbaycana yönəlib. Bu da beynəlxalq hüquq normalarına uyğun qarşılıqlı faydalı əməkdaşlığın yaranmasına və inkişafına əlverişli zəmin yaradıb. Bu gün Prezident İlham Əliyevin yürütdüyü xarici siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını xeyli artırıb. 2020-ci il noyabrın 10-da Ermənistan üzərindəki qazandığımız tarixi Qələbədən sonra Azərbaycanla əməkdaşlıq etmək istəyən dövlətlərin sayı daha da artıb. Bütün bunlar onu deməyə əsas verir ki, ümummilli lider Heydər Əliyev siyasi kursunun Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirilməsi Azərbaycanı dünyanın qabaqcıl dövlətləri sırasına qoşub.

***Havva MƏMMƏDOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının professoru, tarix elmləri doktoru***

# Ulu öndər və Azərbaycanda hüquqi islahatlar

**Ümummilli lider Heydər Əliyev Azərbaycanla yanaşı, dünya siyasətində silinməz izlər qoymuş nadir şəxsiyyətlərdəndir. Ulu öndər ömrünün sonunadək Azərbaycan üçün çalışmış, xalqımızın tərəqqisi yolunda misilsiz xidmətlər göstərmişdir. Son yarım əsrdə ölkəmizdə həyatın bütün sahələrində baş vermiş tarixi irəliləyişin banisi də məhz ulu öndər olmuşdur.**

Novator lider və qurucu şəxsiyyət kimi Heydər Əliyev Azərbaycanın ədliyyə sahəsində də ciddi yeniliklərə imza atmış, müasir məhkəmə sisteminin qurulub ərsəyə gəlməsinə zəmin yaratmışdır. Xatırladaq ki, müstəqilliyin ilk vaxtlarında dövlətimiz çətin sınaqlarla üzüzə qalmışdı. Daxili hərc-mərclik və xarici təzyiqlər nəticəsində Azərbaycan yeni qazandığı suverenliyini itirmək təhlükəsi ilə üzləşmişdi. Lakin dövlətimizin xilaskarı ümummilli lider Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə gəlməsi nəticəsində Azərbaycan düşdüyü bu ağır böhrandan üzüağ çıxa bildi. Ölkəmizin müstəqilliyi möhkəm və etibarlı bünövrə üzərinə qoyuldu, yenilənməyə və tərəqqiyə xidmət edən islahatlar həyata keçirildi.

Həmin dövrdə ən mühüm demokratik tələblərdən biri də qanunun aliliyinin təmin edilməsi idi. O zaman Prezident Heydər Əliyev demişdir: "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi, milli ənənələrindən bəhrələnərək dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir". Müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər zaman keçdikcə qeyd etdiyi bütün sahələrdə uğurlu inkişafa nail oldu. Prezident Heydər Əliyev Azərbaycanın ilk demokratik Konstitusiya layihəsinin hazırlanmasına rəhbərlik edərək mükəmməl Əsas Qanunumuzun hazırlanmasını təmin etdi. 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə müstəqil dövlətin ilk Konstitusiyası qəbul olundu.

Əsas hüquqi-demokratik missiyanı uğurla tamamladıqdan sonra Heydər Əliyev müstəqil məhkəmə hakimiyyətinin formalaşması üçün tədbirlər gördü. Ümummilli liderin rəhbərliyi ilə çevik ədliyyə sisteminin inkişafına şərait yaradan ardıcıl islahatlar həyata keçirildi. Ulu öndərin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" Qanun qəbul edildi. Hakim korpusunun formalaşması yolunda addımlar atıldı, 1998-ci ildə Məhkəmə-Hüquq Şurası təsis olundu. Şuraya məhkəmələrin təşkil edilməsi, hakim vəzifəsinə namizədlərin seçilməsi, məhkəmələr və hakimlərlə bağlı digər məsələləri öz səlahiyyətləri dairəsində həll etmək vəzifəsi həvalə olundu. Ulu öndərin məhkəmə sahəsində gerçəkləşdirdiyi islahatlar nəticəsində üçpilləli məhkəmə sistemi formalaşdırıldı. Test üsulu ilə keçirilən şəffaf müsabiqə əsasında hakim korpusunun seçilməsinə start verildi.

Qeyd edək ki, məhkəmə sistemindəki islahatlar müasir dövrdə də davam etməkdədir. Ulu öndər Heydər Əliyevin irsini və siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev məhkəmə sistemini müasir dövrün tələblərinə uyğunlaşdırmaq və cəmiyyətdə yüksək nüfuza malik olan ədalət mühakiməsinin formalaşdırılmasında mühüm rol oynayan daha bir sənəd – "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman imzalamışdır. 3 aprel 2019-cu il tarixli həmin sənəd məhkəmə-hüquq sitemində yeni bir başlanğıc oldu. Fərmana əsasən məhkəməyə müraciət imkanının genişləndirilməsi, onun fəaliyyətində şəffaflığın artırılması, qərarların tam və vaxtında icrasının təmin olunması ilə bağlı tədbirlər, eləcə də hakimlərin və məhkəmə işçilərinin sosial müdafiəsinin daha da yaxşılaşdırılması nəzərdə tutulmuşdur. Ən əsası isə müasir dövrün tələblərinə uyğun olaraq Elektron Məhkəmə İnformasiya Sistemi yaradılmışdır.



Beləliklə, ulu öndər Heydər Əliyevin hakimiyyətinin ikinci dövründə ədliyyə sahəsi yeni inkişaf yoluna qədəm qoydu. Ədliyyə Nazirliyinin fəaliyyət istiqamətləri, normativ aktların qeydiyyatı və uçotu, ekspertizası, notariat və qeydiyyat, məhkəmə ekspertizası sahəsində işlər yenidən quruldu. Cəzaların icrası sistemi təkmilləşdirilərək penitensiar müəssisələr Daxili İşlər Nazirliyinin tabeliyindən çıxarılaraq Ədliyyə Nazirliyinə verildi.

Ümummilli liderin ədliyyə işçilərinə göstərdiyi diqqət və qayğının nəticəsi olaraq 11 noyabr 2000-ci il tarixli sərəncamla 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis olundu. Bu tarixin seçilməsi isə təsadüfi deyildi. Qeyd edək ki, Azərbaycan Xalq Cümhuriyyəti dövründə, 1918-ci il noyabrın 22-də Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmişdir. Bu, müstəqilliyimizin bərpasından sonra tarixi irsə sədaqət rəmzi oldu.

Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan tarixində ilk dəfə 1999-cu ildə bələdiyyə seçkiləri keçirildi. Yerli özünüidarəetmə orqanı olan bələdiyyələrin fəaliyyətinin müasir tələblərə uyğun təşkil edilməsinə kömək göstərilməsi məqsədilə ulu öndərin sərəncamı ilə Ədliyyə Nazirliynin nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi yaradıldı. Bununla da, bələdiyyələrə inzibati nəzarətin həyata keçirilməsi də Ədliyyə Nazirliyinə həvalə edildi.

2001-ci il avqustun 16-da Azərbaycanın ədliyyə tarixi ilə bağlı muzeyin yaradılması da dövlət başçısı tərəfindən ədliyyəyə verilən dəyərin göstərici idi. Ümummilli liderin təşəbbüsü əsasında yaradılan muzey Xalq Cümhuriyyəti zamanından bu günə qədər ədliyyəmizin tarixi ənənəsinə varisliyin nümunəsidir.

Ulu öndərin ədliyyə sahəsində də siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev yeni tələbləri cavablandıran sənədlərə imza atdı. 2006-cı ildə Ədliyyə Nazirliyinin yeni Əsasnaməsi qəbul edilərək ona hüquq-mühafizə orqanı statusu verildi.

Ölkəmizdə müstəqil dövlət təsisatlarının qurulması, beynəlxalq normalara söykənən demokratik, hüquqi dövlətin inkişaf etdirilməsi, hüquqi dəyərlərimizin qorunub saxlanması, vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinin mükəmməl əsaslarının yaradılması Prezident Heydər Əliyevin misilsiz xidmətidir.

Azərbaycanda müasir ədliyyə və məhkəmə sisteminin inkişafı dahi lider Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin davamlı səyləri ilə ölkəmizdə ədliyyə, məhkəmə, prokurorluq və digər hüquq-mühafizə orqanlarının fəaliyyəti yenidən qurulmuş, onların inkişafının təməli qoyulmuşdur.

Ədliyyə işçiləri ulu öndərin formalaşdırdığı müasir ədliyyə sisteminin səmərəli fəaliyyətinə çalışır, demokrtatik-hüquqi dövlət quruculuğu, insan hüquqlarının qorunması, qanunun aliliyi naminə bilik və bacarıqlarını əsirgəmirlər.

Ümummilli liderin anadan olmasının 100 illiyi ilə əlaqədar ədliyyə orqanlarında keçirilən silsilə tədbirlərlə unudulmaz rəhbərin müstəqil dövlətin hüquq sisteminin qurulmasında tarixi xidmətləri qədirbilənlik və minnətdarlıqla qeyd olunur.

***Faiq ƏKBƏROV,***
***Ədliyyə Nazirliyi İcra Baş İdarəsi Binəqədi rayon şöbəsinin əməkdaşı***

# Azərbaycan mina təhlükəsinə qarşı beynəlxalq həmrəyliyə çağırır



***Ermənistan Azərbaycanın işğal edilmiş ərazilərində 30 il ərzində 1 milyondan çox mina basdırmışdır. Azərbaycan dünyada mina ilə ən çox çirkləndirilmiş ölkələr arasındadır. 1990-cı illərin əvvəlindən 3300-dən çox vətəndaşımız mina qurbanı olmuşdur. Vətən müharibəsinin başa çatdığı 2020-ci il noyabrın 10-dan etibarən Ermənistanın mina terroru nəticəsində 300-ə qədər Azərbaycan vətəndaşı həlak olmuş və ya ağır yaralanmışdır.***

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Azərbaycan BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü olduğu illərdə, eləcə də, Avropa Şurası Nazirlər Kabinetinə, Qoşulmama Hərəkatına, Türk Dövlətləri Təşkilatına sədrlik etdiyi dövrdə kifayət qədər beynəlxalq əhəmiyyətli təkliflərlə çıxış etmiş və uğurlu nəticələrə nail olmuşdur. Artıq beynəlxalq aləmdəki tərəfdaşlarımızla yanaşı, bəzi məqamlarda Bakının mövqeyindən narazı qalan qüvvələrin də həmin təklifləri təqdir etdiyinin şahidiyik. Bu isə haqq işin daim dəstək qazanacağı barədə deyilən fikirlərin təsdiqidir.**

Dövlət başçımız bu il aprelin əvvəllərində də daha bir bəşəri təşəbbüslə çıxış edərək, yeni beynəlxalq qrupun yaradılması təklifini irəli sürmüşdür. Belə ki, Prezident İlham Əliyev 4 Aprel Beynəlxalq Mina Xəbərdarlığı və Mina Fəaliyyətinə Yardım Günü ilə bağlı etdiyi paylaşımda bildirilmişdir ki, Azərbaycan humanitar minatəmizləməni milli Dayanıqlı İnkişaf Məqsədi kimi elan edəcək: "Ölkəmiz humanitar minatəmizləmənin BMT-nin 18-ci Dayanıqlı İnkişaf Məqsədi olması təşəbbüsünü fəal şəkildə təşviq edir. Azərbaycan həm də Minaların Təsirinə Məruz Qalmış Ölkələrin Həmfikirlər Qrupunun yaradılması təklifi ilə çıxış etmişdir. Hazırda azad edilmiş ərazilərimizdə genişmiqyaslı quruculuq işləri aparılır".

Yeri gəlmişkən, dövlət başçımız öz həyatını təhlükə altına ataraq, gecə-gündüz çalışan minatəmizləyənlərimizin fəaliyyətini yüksək qiymətləndirib və əlavə edib ki, dünyada mina terroruna son qoymaq üçün beynəlxalq səylər artırılmalıdır.

Beynəlxalq səylərdən söhbət düşmüşkən, xatırladaq ki, 44 günlük müharibənin başa çatmasından dörd ay sonra Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi İdarə Heyətinin sədri Vüqar Süleymanovla Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının rezident nümayəndəsi Alessandro Frakassetti məlum münaqişədən sonra icma təhlükəsizliyinin bərpasına yönəlmiş yeni maliyyələşmə sənədini imzalamaq məqsədilə bir araya gəlmişdilər.

Bildirilir ki, BMT-nin İnkişaf Proqramının böhran vəziyyətlər üçün nəzərdə tutulan büdcəsindən və BMT-nin Fövqəladə hallara qarşı tədbirlər üzrə Mərkəzi Fondundan toplam, bir milyon ABŞ dolları məbləğində vəsait ayrılıb. Bu vəsaitlə BMTİP, ANAMA-ya münaqişənin təsirlərinə məruz qalan ərazilərdə yaşayan yerli icmalar üçün ciddi risklər yaradan minaları və partlamamış hərbi sursatları təmizləmək üçün təcili müdaxilə qruplarını təlimləndirmək, təchiz etmək və yerləşdirmək üçün dəstək verəcək. Xatırladaq ki, ANAMA 1999-cu ildə BMT İnkişaf Proqramının dəstəyi ilə təsis edilib.

Doğrudur, mina təhlükəsi son əlli ildə dünyanın bir sıra ölkələrində sakinlərin və mütəxəssislərin qorxulu kabusuna çevrilmişdir. Ancaq ekspertlərin fikrincə, heç bir ölkədə mina təhlükəsi Azərbaycanın işğaldan azad edilmiş ərazilərindəki qədər dəhşətli və qorxulu deyil. Çünki başqa müharibələrin iştirakçıları sivil insanlar olduğuna görə, əksər müharibədən sonra minalanmış ərazilərin xəritəsi qarşı tərəfə təqdim edilir. Ermənilər isə nəinki münaqişə və müharibə dövründə basdırdıqları minaların yerini gizlətdilər, hətta, müharibə başa çatandan sonra da ərazilərimizdə külli miqdarda mina "əkdilər". Bu isə erməninin dünyanın başqa millətlərindən fərqinin, daha doğrusu, nə qədər iyrənc olduğunun göstəricisi idi.

Yeri gəlmişkən, bizim ərazilərimizi minalamış işğalçı düşmənin həqiqi qiymətini Azərbaycan Prezidenti İlham Əliyev "Qafqazın Xirosiması"na çevrilmiş Ağdamda olarkən vermişdir: "Sanki buradan vəhşi qəbilələr keçmişdir".

Bəli, özünü erməni adlandıran haylar son iki əsrdə birmənalı şəkildə sübut ediblər ki, Darvinin təkamül nəzəriyyəsinin onlara dəxli yoxdur. Yəni, hələ də insan ola bilməyiblər.

Sonda mərhum şair Əli Kərimin "Daş" şeirindəki "Yarımçılpaq, yarımvəhşi qədim insanın" milyon il əvvəlki səhvinin bu gün də düzəlmədiyi barədə obrazlı ifadəsini xatırlatmaq yerinə düşər. Həmin insanın düşməninə atdığı bir daş yerə düşmür, uçub gedir, üfüqlərdən üfüqlərə.

"Deməyin ki, daş yox oldu, daş çevrilib bir ox oldu. Oldu qılınc, güllə, mərmi. Dayanmadı fikir kimi. Atom oldu. Meridianı qırıq-qırıq, arzuları zərrə-zərrə, okeanı para-para edib keçdi…həmin o daş". Bəli, indiki Azərbaycan ərazilərində basdırılmış minalar həmin yarımçılpaq, yarımvəhşi "ibtidai insanların" – torpaqlarımızda özünə dövlət yaratmış hayların bəşər övladına atdığı daşlardır. Adəm övladı həmin daşlarla Andronikdən, Njdedən, Zori Balayanlardan üzü bəri bütün qaniçənləri daş-qalaq etməsə, dünya düzəlməyəcək.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

## Stendford Universitetinin erməni professoru:

# Qərb Azərbaycanın tərəfindədir

## *Ermənistan Naxçıvana yolu da təmin etməlidir*

**Ermənistanın "məxməri xəyalları" heç nəyə gətirib çıxarmadı, Qərb Azərbaycanın tərəfindədir. Bunu ABŞ-ın Stendford Universitetinin siyasi elmlər doktoru, politoloq Artur Xaçikyan deyib.**



"Biz enişə gedirik, təşviq etdiyimiz "sülh gündəliyi" iflasa uğradı. Nə qədər güzəştə gediriksə, sülhdən danışırıqsa, Bakının iştahı bir o qədər artır. Azərbaycanın BMT-dəki nümayəndəsi artıq bəyan edib ki, Ermənistan səkkiz kəndi təslim etməli və işğal illərinə görə təzminat ödəməlidir", – deyən Xaçikyan Azərbaycanın Laçın–Xankəndi yolundakı şərti sərhəddə – Həkəri çayı üzərindəki körpünün üstündə nəzarət-buraxılış məntəqəsi qurmasına da münasibət bildirib. O vurğulayıb ki, Bakı İrəvanı 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatı pozmaqda ittiham edərək, Qarabağa, tamamilə, sahib çıxmaq yolu tutmaqdadır. Laçın dəhlizinin qapadılması da buna xidmət edir.

Göründüyü kimi, A.Xaçikyanın açıqlamasında doğru vurğuladığı məqamlarla yanaşı, tipik erməni xislətindən irəli gələn düşüncələrə də yer var. Onun Azərbaycanın Qarabağ probleminin həllindən sonra hansı addımları atacağına dair fikirləri diqqət çəkir. Politoloq bildirib ki, Bakı Qarabağın ardınca, Zəngəzur məsələsini də həll edəcəkdir və bununla əlaqədar konkret ssenariyə malikdir. Beynəlxalq ictimaiyyət isə Azərbaycanın iddialarını həzm edir, heç bir müqavimət göstərmir.

Fikirlərinin davamını gətirən erməni əsilli amerikalı siyasi ekspert üçtərəfli Bəyanatda əksini tapmış dəhliz məsələsindən, yəni, Azərbaycanın digər ərazilərini Naxçıvanla birləşdirən quru yolunun təmin edilməsindən də söz açıb. Məlumdur ki, Ermənistan sözügedən sənədin başqa müddəalarına əməl etmədiyi, ötən iki il yarım ərzində bölgədə vəziyyəti gərginləşdirdiyi kimi, Naxçıvana quru yolla əlaqədar üzərinə götürdüyü öhdəliyi də yerinə yetirmir. Belə olan halda Xaçikyanın söylədikləri tanış fikirlərdir. Elə Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib ki, beynəlxalq siyasi leksikona özünün gətirdiyi Zəngəzur dəhlizi ideyası reallaşacaqdır.

Stendford Universitetində elmi-siyasi fəaliyyətlə məşğul olan şəxs həmin dəhlizin reallaşmasının təkcə ölkəmiz yox, dünya üçün də əhəmiyyətini bilməmiş deyil. Mövcud anlamda Bakının nəzərdə tutulan qlobal layihənin gerçəkləşməsi üçün hər hansı zəmin hazırlamasında təəccüblü heç nə yoxdur. Yəni, Xaçikyan məsələdən söz açmaqla "Amerika kəşf etmir". Təəccüblü olan isə nəinki Xaçikyanın, ümumən, erməni siyasi dairələrin və dünya erməniliyinin məsələ barədə, sanki, ilk dəfədir eşidirmiş kimi görüntü yaratmaları, mənasız isteriya qaldırmalarıdır. Digər tərəfdən, Azərbaycan hələ lap başlanğıcda Ermənistanın Zəngəzur dəhlizindən faydalanma imkanlarını da irəli sürüb.

Əlbəttə, başlıca məqam avantürist məqsədlər güdən İrəvanın Bakının təklifini, necə deyələr, qulaqardına vurmasıdır. Yeri gəlmişkən, Ermənistan, nəinki, bu məsələdə kompromisə gəlmir, ümumən, Azərbaycanla normallaşma prosesində konstruktiv mövqe tutmur, sülh ritorikasından uzaq durur, danışıqlar prosesini dalana dirəyir. Belə olan halda, Azərbaycan, bir qədər kəskin desək, qanmazı qandırmaq hüququnu özündə saxlamaqdadır.

Erməni politoloq açıqlamasında dəhliz məntiqinə Azərbaycanın Ermənistandan işğal illərinə görə təzminat tələbindən söz açarkən də söykənib. Onun sözlərindən əldə olunan qənaət budur ki, hazırkı məqamda dəhliz üçün "yaşıl işıq" yandırması Ermənistanı Bakının təzminat tələbindən qurtara bilər. Əks halda, İrəvan tələbi yerinə yetirməli olacaqdır. Xaçikyanın məntiqinə görə, tələbin yerinə yetirilməməsi Sünikin, yəni Zəngəzurun Azərbaycan tərəfindən tutulması perspektivini doğuracaqdır.

Xaçikyan açıqlamasının sonunda da əvvəlində haqqında söz açdığı məqama qayıdıb. Söhbət onun beynəlxalq ictimaiyyətin Azərbaycan qarşısında acizliyinin dilə gətirilməsindən gedir. Əlbəttə, biz də otuz ilə yaxın müddətdə beynəlxalq normaların, beynəlxalq hüququn işləmədiyini vurğulamışıq. Nəinki Ermənistanın siyasi rəhbərliyi, ümumən, dünyada heç kəs sözümüzə əhəmiyyət verməyib, tutarlı tədbir görməyib, İrəvanı işğaldan daşındırmayıb. İndi Xaçikyan və onun kimilər nə qədər danışırlarsa, danışsınlar və bildirsinlər ki, Qərb açıq-aydın Azərbaycanın tərəfində çıxış edir, ona həm hərbi, həm də iqtisadi yardım göstərir. Lap elə ölkəmizin Qarabağda etnik təmizləmə həyata keçirməyə hazırlaşdığını vurğulamaları da mümkündür. Çünki eyni əməlləri azərbaycanlıların başına gətiriblər. İndi öz üzərlərinə götürdükləri öhdəlikləri yerinə yetirsinlər.

***R.ƏVƏZ,***
***"Xalq qəzeti"***

## Gizli cəbhə ölüm saçır

**Qafqazın dumanlı-çiskinli hava şəraitində diplomatik kompasını itirmiş Hayastanın hərbi-siyasi rəhbərliyinin yerin üstündə bacarmadığını yerin altında reallaşdırmağa çalışması acı ironiya doğurur. Amma düşmənin mina terroruna beynəlxalq ictimaiyyətin susqun qalmasını, bu vandallığa göz yummasını isə böyük təəssüf hissi və heyrətlə seyr etməkdəyik...**

Millətinin gələcəyini xilas etmək üçün sağlam düşüncəli gənc nəsil yetişdirmək əvəzinə, mina istehsalını "təkmilləşdirən" Ermənistanın başbilənləri, yəqin ki, bu üsulla da heç nəyə nail ola bilməyəcəklərini anlamamış deyillər. Hər şeydən göründüyü kimi, Gümrüdəki zavodda mina istehsalını sürətlə artıran İrəvan postmüharibə dövründə Qarabağ iqtisadi rayonumuzu fasiləsiz minalamaq niyyətindən əl çəkmək fikrində deyil. Qarabağımızı 30 ilə yaxın işğalda saxlayan haylar yurdumuzu talan edib viran qoymaqla yanaşı, həm də onun hər bucağını kütləvi şəkildə minalarla çirkləndiriblər. 44 günlük qurtuluş savaşında əzəli torpaqlarını yağılardan azad edən Azərbaycan indi mina terroru ilə üz-üzədir. İnsanlarımız az qala hər gün yeraltı müharibənin – minaların qurbanına çevrilir, sağlamlıqlarını itirirlər. Vandal ermənilər növbəti mina terrorunu 2023-cü il aprelin 28-də Tərtər rayonunun Talış kəndi yaxınlığında törətdilər. Bu ərazidə basdırılan minanın partlaması nəticəsində 3 dinc soydaşımız həlak oldu.

### Sülhməramlıların mina sayğısızlığı

"Beynəlxalq ictimaiyyəti Ermənistanın beynəlxalq öhdəliklərini kobud şəkildə pozmasına, o cümlədən, məqsədli şəkildə minalar yerləşdirmək siyasətinə göz yummamağa çağırırıq". Azərbaycanın XİN-in Tərtərdə mina partlayışı nəticəsində mülki şəxslərin həlak olması barədə mətbuat üçün məlumatında bildirilir. 44 günlük müharibədə məğlubiyyətini hələ də həzm edə bilməyən Hayastanın daşnak-revanşist qüvvələri mina terroru ilə guya "qisas almağa" çalışırlar. Məsələnin maraqlı tərəfi odur ki, minaların basdırıldığı bütün əraziyə Rusiya sülhməramlı kontingenti tərəfindən nəzarət olunur. Həm gündüz, həm də gecə. Deməli, "minabasdırma əməliyyatları" sülhməramlıların gözü qarşısında həyata keçirilir. Onların 5 illik mandatının yarısı geridə qalıb. Sanki ermənilərin terrorçuluq fəaliyyətinə müdaxilə etmək, bölgədə sülh və sabitlik yaratmaq onların missiyasına daxil deyil. Əsas məqsədləri burada qalma müddətini hər vasitə ilə uzatmağa nail olmaqdır. Həm də bu səbəbdən Azərbaycan adekvat tədbirlər görməyə məcburdur və bunu beynəlxalq hüquqa söykənərək edir. Elə yaxın təcrübə də onu göstərir ki, belə bir zərurət yarandığı təqdirdə konkret addımlar atılır, bundan sonra da atılacaq.

Erməni təxribatçıların torpağımıza düzdüyü minalar xüsusilə təhlükəli, yəni, insanlıq əleyhinə minalar sayılır. Bu minalardan istifadə beynəlxalq Ottava Konvensiyasına görə, insanlığa qarşı hərbi cinayət hesab olunur. Hayların 2021-ci ildə istehsal etdikləri minaları Azərbaycanın ərazisində yerləşdirməsi beynəlxal hüquq baxımından cinayətdir. Onların mina özfəaliyyəti işğal dövründə geniş miqyasda həyata keçirilib. Fəqət, müharibədən sonra da İrəvan mina terrorçuluğunu davam etdirir. Bu fəaliyyət 10 noyabr tarixli bəyanatla, eləcə də iki ölkə başçısının iştirakı ilə qəbul edilmiş digər razılaşmalarla daban-dabana ziddir.

**ARAYIŞ: 2020-ci ilin 10 noyabr razılaşması ilə döyüş əməliyyatları dayandırılandan bu günə qədər Ermənistan silahlı qüvvələrinin basdırdıqları minaların partlaması nəticəsində hərbi qulluqçu və mülki şəxs olmaqla, ümumilikdə, 298 mina qurbanından 54-ü həlak olub, 244 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb.**

# Diqqət: Sahə "ermənilənib!"




### "Erməniləşən" minalar...

Azərbaycana yararlı və düzgün mina xəritələrini təqdim etməyən Ermənistanın üçtərəfli Bəyanatın 6-cı bəndini kobudcasına pozduğu Azərbaycan XİN-in açıqlamasında ayrıca qeyd olunur. Azərbaycan ərazisində hərbi fəaliyyəti və minaların yerləşdirməsini davam etdirən Ermənistanın əsas məqsədi post-münaqişə dövründə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, bu ərazilərdə fəaliyyət göstərən mülki əhaliyə, habelə məcburi köçkünlərin geri qayıtmasına və öz yerlərində dinc yaşamasına mane olmaqdır.

28 aprel hadisəsindən iki gün əvvəl Tərtər rayonunun Suqovuşan kəndi istiqamətindəki ərazidə baş vermiş mina partlayışı nəticəsində Beynəlxalq Avrasiya Mətbuat Fondunun sürücüsü, 1990-cı il təvəllüdlü Xəzər Babaşov xəsarət alıb. Tərtər Rayon Prokurorluğunda Beynəlxalq Avrasiya Mətbuat Fondunun əməkdaşının minaya düşməsi ilə bağlı araşdırmalara başlanılıb. Güman edirik ki, ətraflı araşdırma olduqca maraqlı məqamları ortaya çıxaracaq.

Faşist generallarına, uşaq qatillərinə heykəllər ucaldan haylar mina hədəflərinin, günahsız qurbanlarının sayını artırmağın, onlara daha artıq xəsarət yetirməyin "mütərəqqi üsullarını" kəşf edirlər. Qarabağda təkcə hərbi deyil, eləcə də mülki nəqliyyat vasitələrinin hərəkət edəcəyi yollara, xarabalığa çevirdikləri qəbiristanlıqlara aparan cığırlara üst-üstə bir neçə qat mina döşəmək xəstə hay ağlının məhsulu ola bilər. Uşaq oyuncaqlarının içinə mikrobombalar yerləşdirib, onları cəbhə bölgəsindəki kəndlərimizin həyətlərinə atmaq isə dinc sakinlərin qənimi "qırmızı kxmerlərin" belə ağlına gəlməzdi. Bəli, onların Bakıya təzyiq kimi terror alətinə çevirməyə çalışdıqları minalardan istehsalçının iyi gəlməkdədir. Bu səbəbdən, təklif edirik ki, ANAMA-nın məlum xəbərdarlıq lövhələrinə "sahə minalanıb!" əvəzinə "sahə ermənilənib!" sözləri yazılsın.

### ...Cəzasını beşqat çəkəcəksiniz!

Azərbaycan bu günə qədər də Ermənistanın terror fəaliyyəti, təbiətə, mədəni irsə, insanlığa qarşı əməlləri, hərbi cinayətləri barədə beynəlxalq birliyə, BMT-yə dəfələrlə müraciətlər ünvanlayıb. Əlbəttə ki, indiki durumda beynəlxalq ictimaiyyətin səsimizə səs verəcəyini və ədalət gözləməyimiz sadəlövhlük olardı. Rəsmi Bakı hayların bu kimi təxribatlarına həm hərbi, həm də siyasi müstəvidə artıqlaması ilə cavab verib, qisasını da alıb. Bu dəfə də belə olacağına qəti şübhəmiz yoxdur. Ali Baş Komandanın dediyi kimi, düşmən birə beş ödəyəcəkdir. Zəruri addımları isə heç kəslə məsləhətləşmədən atacağıq. Necə ki, bir həftə bundan əvvəl suveren ərazimizdə, Laçın yolunda sərhəd nəzarət-buraxılış məntəqəmizi qurduq. Bunu demişdik və etdik. Necə etdiyimizi isə erməni siyasi ekspertləri də etiraf edirlər. Onlardan biri, politoloq Avanes Petrosyan sosial şəbəkədə yazıb: "Bakıda işi çox yaxşı qurublar, öz addımlarını dəqiq formalaşdırır və onları mütləq reallaşdırırlar". Düz sözə nə deyəsən?!

Bu gün Hayastan təkcə Cənubun deyil, bütövlükdə, Qafqazın hər an partlamağa hazır vəziyyətdə olan barıt çələyinə, bu bölgənin özü boyda minasına çevrilib. Beynəlxalq "istehkamçılar" onu nə qədər tez zərərləşdirsələr, bölgə bir o qədər tez rahat nəfəs alar.

***İmran BƏDİRXANLI, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Umud RƏHİMOĞLU,**
**ANAMA yanında İctimai Şuranın sədri**

Ermənilərin Tərtərdə törətdikləri mina partlayışı terror hadisəsidir. Biz ermənilərin törətdiyi bu faciələri son günlər tez-tez yaşayırıq. Ötən gün (aprelin 28-də – red.) mina partlayışı nəticəsində 3 dinc vətəndaşımız həyatını itirdi. Həmin ərazilər dəhşətli dərəcədə minalarla çirkləndirilib. Hadisənin detallarını görəndə adam dəhşətə gəlir. Monitorinq zamanı aşkar edilib ki, bu ərazilər 30 illik işğal müddətində minalarla ən çox çirkləndirilən ərazilərdəndir. Onu da deyim ki, keçmiş təmas xətti boyunca bütün ərazilərdə eyni problem yaşanır. Yəni, bu ərazilərdə torpağın altı maksimum dərəcədə piyada və tank əleyhinə minalarla çirkləndirilib. Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra ikinci faciəni yaşayır. Vətən müharibəsində biz düşmənlə problemi çözdük, 30 il işğal altında olan ərazilərimizi azad etdik. Baxmayaraq ki, onlar bizim bu problemimizə də biganə idilər. Mina problemi bəşəri problemdir, bütün insanlığın problemidir. Beynəlxalq təşkilatları, supergücləri, insan hüquq müdafiəsi təşkilatlatlarını bu məsələyə biganə qalmamağa çağırırıq. Beynəlxalq təşkilatlar Azərbaycanın mina probleminə ciddi yanaşmalıdırlar.

# Azad edilən torpaqların bar-bərəkəti cana gətirilir



**Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin kənd təsərrüfatı potensialı olduqca yüksəkdir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən əsrin 80-ci illərində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları respublika üzrə kənd təsərrüfatı məhsulları istehsalında əhəmiyyətli paya malik olub.**

### *Ekspert rəyi*



**Mahir ZEYNALOV,
İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent**

Azərbaycanda kənd təsərrüfatı qeyri-neft sektorunun ən mühüm sahələrindən biridir. Ölkə iqtisadiyyatının 6 faizini əhatə edən aqrar sektor ərzaq təhlükəsizliyinin təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Buna görə də dövlət kənd təsərrüfatının davamlı inkişafını daim dəstəkləyir. Müsbət haldır ki, Azərbaycanda, hətta pandemiya dövründə belə, kənd təsərrüfatında artım meyilləri davam edir.

Hazırda işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının hərəkətə gətirilməsi, o cümlədən kənd təsərrüfatının inkişaf etdirilməsi istiqamətində böyük bir canlanma müşahidə olunur. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sektorda ölkənin ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək həcmlərdə kənd təsərrüfatı və ərzaq məhsullarının istehsal olunacağı gözlənilir. Xüsusən də, taxıl, meyvə, tərəvəz istehsalı, heyvandarlıq əsas sahələr olacaq.

Bu ərazidə mövcud 1,213 milyon hektar torpaq sahəsinin 591,776 min hektarı əkinə yararlı, 231,56 min hektarı əkin, 351,822 min hektarı örüş-otlaq və biçənək, 8,898 hektarı isə həyətyanı sahələrdir. Bir məqamı da diqqətə çatdırım ki, 1980-ci illərdə Qarabağ və ətraf rayonlar üzrə 139,814 hektar ərazidə əkin aparılırdı ki, bu da ölkə üzrə əkin sahələrinin 7,7 faizini təşkil edirdi.

Düşmən tapdağından azad edilmiş torpaqlarımızda kənd təsərrüfatı dirçəldildikdən sonra burada heyvandarlıq məhsulları, o cümlədən ət istehsalı aparıcı sahələrdən biri olacaq. Post-konflikt rayonlarda ənənəvi heyvandarlıq sahələri yüksək potensiala malikdir. Çünki Qarabağda heyvandarlığın inkişafı üçün təbii şərait mövcuddur. Yeri gəlmişkən, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında ildə orta hesabla 30 min ton ət istehsalı proqnozlaşdırılır ki, bu da ölkənin özünü ət və ət məhsulları ilə təminetmə səviyyəsinin yüksəlməsi, eləcə də idxalın əvəzlənməsi baxımından əhəmiyyətli rəqəmdir.

Düşünürəm ki, post-konflikt rayonlarda kənd təsərrüfatı dirçəldildikdən sonra Azərbaycan özünü mal, qoyun və keçi əti ilə tam təmin edə biləcək. Göründüyü kimi, dünyada ərzağın bahalaşdığı bir şəraitdə Qarabağda kənd təsərrüfatının dirçəldilməsi müstəsna əhəmiyyət daşıyır. Bu, həm də ərzaq təhlükəsizliyimiz, daxili bazarın ekoloji təmiz, keyfiyyətli məhsullarla təmin olunması və qiymətlərin ucuzlaşması baxımından vacibdir.

Belə ki, təqribi hesablamalara görə, həmin dövrdə taxıl məhsullarının 14 faizi, kartof, tərəvəz və bostan məhsullarının 6 faizi, tütünün 8 faizi, üzümün 25 faizi, ət və süd məhsullarının hər biri üzrə istehsalın 15 faizi məhz bu bölgənin payına düşüb.

Ölkəmizin ərazi bütövlüyünün bərpası, torpaqların minalardan və partlamamış hərbi sursatlardan təmizlənməsi bu yerlərdə həyatın canlanmasına, xüsusən də kənd təsərrüfatının dirçəldilməsinə, kəndlinin əkin-biçinə marağının artmasına səbəb olub. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyevin azad olunmuş torpaqlarımızla bağlı ilk tapşırıqlardan biri məhz həmin torpaqların minalardan təmizlənərək əkin dövriyyəsinə cəlb edilməsi ilə bağlı olub.

Yeri gəlmişkən, dövlət başçısının 2022-ci il 16 noyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" təsdiq edilmişdir. 2026-cı ilədək olan dövrü əhatə edən bu mühüm dövlət sənədində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında kənd təsərrüfatının inkişaf etdirilməsi üçün bir sıra tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur. Həmin tədbirlərə işğaldan azad olunmuş ərazilərdə yeni torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması, əkin sahələrinin və heyvandarlıq təsərrüfatlarının bərpası, məhsuldar ərzaq istehsalı sistemləri təmin edilməklə dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi, ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturunun formalaşdırılması, kənd təsərrüfatının müxtəlif sektorlar üzrə inkişafının stimullaşdırılması və s. mühüm məsələlər daxildir.

Qeyd edək ki, hazırda qoyunçuluq və arıçılıq təsərrüfatlarının işğaldan azad edilmiş Laçın və Kəlbəcər yaylaqlarına aparmaq istəyən fermerlərin qeydiyyatı aparılır. Qaydalara əsasən, Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarından olan fermerlər öz təsərrüfatlarını Laçın və Kəlbəcər yaylaqlarına köçürə bilərlər. Bu iqtisadi zonalardan olan, 40 və daha artıq arı ailəsinə sahib fermerlərə arıçılıq təsərrüfatlarını Laçın və Kəlbəcər yaylaqlarına köçürməyə icazə verilir. Bununla yanaşı, eyni kateqoriyadan olan, təsərrüfatlarında 200 başdan artıq xırdabuynuzlu heyvan olan fermerlərə də təsərrüfatlarını Laçın və Kəlbəcər yaylaqlarına köçürməyə icazə verilir. Yeri gəlmişkən, ötən ilin yaylaq mövsümündə 17 min 406 şəxsin fermer təsərrüfatlarının tərkibində azad olunmuş ərazilərdəki yaylaqlara getməsinə icazə verilmişdi. Cari ilin eyni mövsümündə isə bu rəqəmin daha yüksək olacağı gözlənilir.

Bundan əlavə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları baramaçılıq və pambıqçılıq üçün də əlverişlidir. Məlum olduğu kimi, keçmiş SSRİ dövründə Qarabağda və ətraf rayonlarda yetişdirilən barama məhsulu Xankəndidəki ipək kombinatında emal olunurdu. Kənd təsərrüfatı mütəxəssisi Firdovsi Fikrətzadənin qənaətinə görə, bölgədə baramaçılıq ənənəsi bərpa edildikdən sonra burada ipək istehsalı üçün perspektiv yaranacaq. Mütəxəssis hesab edir ki, Ağdam və Füzuli rayonlarında pambıq əkinini genişləndirməklə kənd təsərrüfatının bu mühüm sahəsinin əvvəlki şöhrətini qaytarmaq olar. Eyni zamanda, adıçəkilən rayonların tərəvəz, o cümlədən soğan istehsalında da potensialı olduqca yüksəkdir.

Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl və Zəngilan isə üzümçülük ənənəsi ilə tanınıb. Həmin sahələrin bərpası sözügedən iqtisadi rayonunun aqrar sahəsi üçün böyük perspektivlər vəd edir. Bununla yanaşı, Qarabağ iqtisadi rayonunda nar və xurma yetişdirməklə meyvəçiliyi inkişaf etdirmək mümkündür.

Nazirlər Kabinetinin 2022-ci ilə dair fəaliyyəti haqqında hesabatında bildirilib ki, ötən il işğaldan azad olunmuş torpaqlarda, ümumilikdə, 48,7 min hektar əkinəyararlı torpaq sahəsi müəyyən edilib və bu sahələrin 38,2 min hektarında payızlıq buğda, 9,6 min hektarında isə arpa əkilib. Bundan əlavə, həmin ərazilərdə biçinin həyata keçirilməsi üçün ayrılmış 10 ədəd yeni kombayn və digər rayonlardan dislokasiya edilmiş 20 ədəd kombayn hesabına 15 min hektara yaxın sahənin biçini təmin edilib.

***Mirbağır YAQUBZADƏ, "Xalq qəzeti"***

# "Azərbaycan" İES ulu öndərin milli energetikamıza tarixi töhfəsidir

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı olaraq "Azərenerji" ümummilli liderin şah əsərlərindən sayılan və 40 ildən artıq vaxt keçməsinə baxmayaraq hələ də Qafqazın ən böyük istilik elektrik stansiyası titulunu qoruyub saxlayan Mingəçevirdəki "Azərbaycan" İES-də geniş tədbir keçirib. Əvvəlcə "Azərenerji", "Azərişıq" və Mingəçevir rayon rəhbərliyi ulu öndərin "Azərbaycan" İES-in həyətində ucaldılan abidəsinin önünə gül dəstələri qoyublar.**



Sonra ümummilli liderin Azərbaycan elektroenergetika sahəsində həyata keçirdiyi misilsiz fəaliyyətinə həsr olunan sərgiyə baxış olub.

"Azərenerji"dən redaksiyamıza bildirilib ki, ulu öndərin təşəbbüsü ilə tikilən 2400 meqavatlıq "Azərbaycan" İES Prezident İlham Əliyevin sərəncamı ilə tam yenidən qurulub və tədbirin əsas hissəsi də yenidənqurmadan sonra yeni tikilən İdarəetmə Mərkəzinin akt zalında keçirilib. Əvvəlcə ümummilli liderin elektroenergetika sahəsində gördüyü işlərə dair "Azərenerji" tərəfindən hazırlanmış film nümayiş olunub.

"Heydər Əliyevin milli energetika siyasəti və müasir transformasiyalar" mövzusunda konfransda "Azərenerji" nümayəndələri, akademik və professorlar, Mingəçevir şəhər rəhbərliyi, Milli Məclisin deputatları, müharibə veteranları da çıxışlar edib və ulu öndərin həyata keçirdiyi uğurlu fəaliyyətindən danışıblar.

Tədbirin sonunda 1981-ci il oktyabrın 20-də "Azərbaycan" İES-in açılış mərasimində iştirak edən və elektroenergetika sahəsində səmərəli fəaliyyət göstərən "Azərenerji"nin bir qrup əməkdaşına xatirə plaketlər təqdim olunub. Eyni zamanda, qonaqlara ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə tikilən və Prezident İlham Əliyevin sərəncamı ilə yenidən qurulan "Azərbaycan" İES haqqındakı "Bərpa olunan miras" kitabı təqdim edilib.

***"Xalq qəzeti"***

# SOCAR qaz hasilatını 15 faiz artırıb




**SOCAR-dan aldığımız məlumata görə, şirkət tərəfindən cari ilin birinci rübündə 20 min metrə yaxın qazma işləri həyata keçirilib. Bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 7,6 faiz çoxdur.**

Məlumata görə, hesabat dövründə şirkət tərəfindən 1,9 milyon tondan çox neft, 2,2 milyard kubmetrdən çox qaz hasil olunub. Neft hasilatı nisbətən sabit qalsa da, qaz hasilatında əvvəlki illə müqayisədə 15 faiz artım qeydə alınıb. Ölkə üzrə ümumilikdə 7,7 milyon tondan çox neft və 12,2 milyard kubmetrə yaxın qaz hasil edilib. Ümumilikdə ölkə üzrə qaz hasilatı 3 faiz artıb.

Hesabat dövründə SOCAR tərəfindən dünya bazarına 4,6 milyon tondan çox xam neft, Gürcüstan bazarına isə 581 milyon kubmetr təbii qaz ixrac olunub. SOCAR-ın dünya bazarına ixrac etdiyi neft həcmləri ötən ilin analoji dövrü ilə müqayisədə 13,2 faiz yüksəlib.

***"Xalq qəzeti"***

# Tatarıstan – Şimalda türk məmləkəti

## *Həm də Volqaboyunda Azərbaycanın dostu və* tərəfdaşı

**Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlərin müqavilə-hüquqi əsasını formalaşdıran əsas sənəd – dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında müqavilə 1997-ci il iyulun 3-də imzalanıb. Bundan sonra isə ölkəmizin Rusiya Federasiyasının regionları ilə birbaşa işgüzar əlaqələr sürətlənib. Son illərdə Rusiya və Azərbaycan regionları arasında əməkdaşlıq haqqında 40-a yaxın saziş imzalanıb.**

Azərbaycan Respublikası ilə Tatarıstan Respublikası arasında ikitərəfli münasibətlərin qurulmasında və möhkəmlənməsində Heydər Əliyevin böyük xidməti olub. 1996-cı il noyabrın 20-də Tatarıstanın rəhbəri Mintimer Şaymiyev Azərbaycan Prezidenti Heydər Əliyevin şəxsi dəvəti ilə Azərbaycana rəsmi səfər edib. Həmin vaxtdan başlayaraq tərəflər arasında bir sıra mühüm istiqamətlər üzrə qarşılıqlı əməkdaşlıq səmərəli şəkildə inkişaf etdirilib. Müntəzəm surətdə yüksək səviyyədə görüşlər keçirilib, ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Azərbaycan–Tatarıstan Hökumətlərarası İşçi Qrupu, Azərbaycan Respublikasında Tatarıstan Respublikasının daimi nümayəndəliyi fəaliyyət göstərib, iqtisadiyyat, mədəniyyət və təhsil sahələrində münasibətlər dinamik şəkildə inkişaf edib. 2021-ci ildə qarşılıqlı əmtəə dövriyyəsinin həcmi 70 milyon dollar, 2022-ci ildə isə 125 milyon dollardan çox olub.

Tatar və Azərbaycan xalqlarını həmişə qardaşlıq və dostluq telləri bağlayıb. Hazırda Tatarıstanda 20 minə yaxın azərbaycanlı, Azərbaycanda isə 25 mindən çox tatar yaşayır. Tatarıstanda olduğu kimi, Azərbaycanda da başqa etnosların nümayəndələrinin öz milli ənənələrini, mədəniyyətini və dilini qoruyub saxlamaqla bərabər, respublikanın sosial-iqtisadi, siyasi və mədəni həyatına tamdəyərli inteqrasiya edə bilmələri üçün hər cür şərait yaradılıb.

Azərbaycan ilə Rusiya Federasiyasının Tatarıstan Respublikası arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın həmsədri, iqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi nümayəndə heyətinin Tatarıstan səfəri çərçivəsində keçirdiyi görüşlərdə də bütün bunlar barədə ətraflı danışılıb. Tədbirlərdə hər iki respublika arasında iqtisadi-ticarət əlaqələrinin inkişafı, qarşılıqlı ticarət dövriyyəsinin artırılması, birgə müəssisələrin yaradılması, həmçinin iqtisadiyyatın sahə sektorlarının inkişafı və Azərbaycan–Rusiya birgə layihələrinin həyata keçirilməsi məsələləri müzakirə olunub.

Səfər çərçivəsində iqtisadiyyat naziri Tatarıstanın bir sıra iri müəssisələrinin rəhbərləri ilə görüşlər keçirib. Görüşlərdə ölkəmizdə xarici şirkətlərin fəaliyyəti üçün yaradılmış əlverişli biznes və investisiya imkanları barədə məlumat verilib, enerji, maşınqayırma və sənayenin digər sektorlarında əməkdaşlıq və qarşılıqlı maraq doğuran perspektiv layihələr barədə müzakirələr aparılıb. Həmçinin Tatarıstan şirkətləri tərəfindən əməkdaşlıq təkliflərinə dair təqdimat keçirilib.

Azərbaycan nümayəndə heyəti Tatarıstanın İnnopolis Xüsusi İqtisadi Zonasında (XİZ) müəssisələrin fəaliyyəti ilə tanış olub. XİZ-də təhsil və iqtisadiyyat sektorları arasında qurulmuş uğurlu sinerji və rezidentlər tərəfindən qabaqcıl texnologiyalar əsasında istehsal edilən innovasiya əsaslı məhsullar və texnoloji yeniliklər barədə məlumat verilib. XİZ-ə səfər çərçivəsində həmçinin, Azərbaycanın sənaye zonalarındakı biznes subyektləri ilə əməkdaşlıq və birgə investisiya layihələrinin reallaşdırılması imkanlarına dair fikir mübadiləsi aparılıb. Tatarıstanın İnnopolis Universitetində olan Azərbaycan nümayəndə heyətinə təhsil müəssisəsinin tədris




proqramları, iqtisadiyyatın müxtəlif sektorları üzrə həyata keçirilən elmi-texniki yeniliklər barədə məlumat verilib.

Kazanda yerləşən Ximqrad Texnopolisini ziyarət edən nümayəndə heyətinə Texnopolisin fəaliyyəti, əsasən kimya sənayesində kiçik və orta sahibkarlıq subyektləri üçün yaradılan imkanlar barədə məlumat verilib. Rezidentlər tərəfindən istehsal edilən kimya, əczaçılıq, polimer və s. sənaye məhsullarının, maşın və avadanlıqların təqdimatı reallaşıb. Texnopolisdə fəaliyyət göstərən müəssisələrlə Azərbaycanın sənaye parklarının rezidentləri arasında tərəfdaşlıq və müştərək layihələrin icrası imkanları barədə də ətraflı danışılıb. Səfər çərçivəsində Azərbaycan–Tatarıstan Birgə Hökumətlərarası Komissiyasının 3-cü iclası da keçirilib. İclasda iqtisadiyyatın şaxələndirilməsi, sənaye, ticarət, turizm və rəqəmsallaşma sahəsində gücləndirilməsi tədbirlərindən bəhs edilib.

Tatarıstanın rəhbəri Rüstəm Minnixanov ilə görüşdə isə Azərbaycan-Tatarıstan münasibətlərinin inkişafı, iqtisadi əməkdaşlığın gücləndirilməsi istiqamətində görülən işlər və işgüzar əlaqələrin genişləndirilməsi barədə fikir mübadiləsi edilib. Azərbaycan–Tatarıstan Biznes Forumunda ticarət və investisiya sahəsində əməkdaşlığın genişləndirilməsi, biznes əlaqələrinin gücləndirilməsi və investisiya yatırılması barədə müzakirələr aparılıb. Tatarıstanlı iş adamları Azərbaycanda sənaye zonalarına investisiya yatırmağa, biznes imkanlarından yararlanmağa dəvət olunub.

İnvestisiyaların İnkişafı Agentliyinin Birləşmiş Təqdimat Mərkəzində Tatarıstanın iqtisadi və investisiya potensialı, sənaye klasterləri və XİZ-lərin fəaliyyəti ilə bağlı təqdimat keçirilib. Mərkəzə səfər çərçivəsində birgə investisiya layihələrinin perspektivləri müzakirə edilib.

***Vaqif BAYRAMOV, "Xalq qəzeti"***

# İranda Nizamini gözdən salmaq cəhdləri

## “Gəncəli dahi ya farsdır, ya da heç şair deyil” (?!)

**Nüfuzlu humanitar platforma olaraq dünyada təsir dairəsini getdikcə genişləndirən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi builki Bakı Forumunda Prezident İlham Əliyevin böyük Azərbaycan şairi haqqında səsləndirdiyi “Onun müdrikliyi və istedadı Azərbaycan xalqının istedadını və müdrikliyini təcəssüm etdirir” fikri dərhal qonşu İrandakı fars şovinist dairələrin xüsusi qısqanclığı ilə qarşılandı. Tehranda Nizami həftəsinin və konfransının keçirilməsi, burada “Nizaminin fars şairi”, Azərbaycanın qədim mədəniyyət mərkəzi “Gəncənin İran şəhəri” olmasının iddia edilməsi tarixi reallığın gülünc şəkildə təhrif edilməsi, tarixi həqiqətin inkar edilməsi cəhdi idi.**





AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevlə bu mövzuda söhbəti aşağıdakı suallarla davam etdirdik.

***– Son 1 əsrin ədəbi-ictimai xronikası göstərir ki, fars ədəbiyyatşünas və ideoloqları Nizami Gəncəvinin Azərbaycan şairi olmasını inkar etməyə çalışsalar da, buna nail ola bilmirlər. Ümumiyyətlə, akademik Maarın dediyi kimi, “Nizamidən başdan-başa türk iyi gəldiyini” yaxşı bilən İran şovinist dairələri, hansı yolla olur-olsun, bu ümumşərq dahisini Azərbaycandan qoparmaq istəyirlər. Bu mümkün olmadıqda isə onun böyüklüyünü və dünya şöhrətini aşağılamağa çalışırlar.***

– Farslar həmişə Nizamini Firdovsiyə qısqandıqlarından ondan sevgi və rəğbətlə bəhs etməyiblər. Çünki əmindirlər ki, Nizami fars dilində yazsa da, fars deyil, farslığa bağlı olmayıb. Firdovsiyə təmtəraqlı heykəllər qoysalar da, onu göylərə qaldırsalar da, bunu Nizami ilə bağlı etmirlər. Sadəcə, onlar Nizaminin dünya şöhrətinin Azərbaycan xalqına nəsib olmasını istəmirlər. Beynəlxalq Nizami mərkəzinin Azərbaycanla bağlı uğurlu fəaliyyəti də bu baxımdan qonşu ölkədə narahatlıq doğurur. Qısası, İranda Nizami sevgisi saxta və birtərəflidir. Bunun çox sayda sübutları var.

Nizami Gəncəvinin milli mənsubiyyəti, məkanı həmişə İran alimlərində qıcıq və həsəd hissi yaratmışdır. Elə buna görə XVII əsrdən başlayaraq Nizami Gəncəvinin əlyazma nüsxələrinə Nizaminin “İranın Qum şəhərində doğulması” barədə əsassız məlumatı saxtakarcasına daxil etməkdən belə çəkinməmişlər. İndi də onun fars mənşəli olması fikrini ortaya atıb bu mövzuda İranda konfrans keçirmək, beynəlxalq aləmə bu yalanları sırımaq fikrinə düşmələri də ənənəvi saxtakarlığın davamından başqa bir şey deyildir.

Bu da onu göstərir ki, din qardaşı kimi ortaq mədəniyyət paylaşdığımız farsların millətçi ideoloqları bu saxtalaşdırma əməllərinə bu gün başlamamış, tabeliyində uzun əsrlər hüzur içində yaşadıqları türklərin haqq-sayını yerə vurmuş, bu xalqa qarşı bədxahlıqdan hələ də əl çəkməmişlər. Şimali Azərbaycanın 7 milyonluq xalqı (indi 10 milyondan çox) ikinci dəfə dövlət müstəqilliyinə qovuşduqdan sonra Güneydəki 35 milyonluq azərbaycanlıların da müstəqillik və milli birlik arzusuna düşəcəyini düşünərək, bundan xoflanaraq hakim İran millətçiləri bütün ideoloji sahələrdə (şiəçilik amili başda olmaqla) əks-təbliğat, dezinformasiya fəaliyyətinin dairəsini daha da genişləndirməyə çalışmış, diplomatik korpusu da bu işə səfərbər etmişdir.

Bu yaxınlarda əlimə keçən bir kitab da fikrimi tam şəkildə təsdiq edir. Bu üzdəniraq nəşrlə tanışlıq göstərdi ki, Nizami Gəncəvi problemi İranda dövlət siyasəti səviyyəsinə qaldırılmışdır və bu istiqamətdə dezinformasiya tədbirləri bir neçə on illərdir ki, altdan-altdan müxtəlif münasibətlərlə həyata keçirilir. Ona görə də həmin kitab haqqında düşüncələrimi qəzetin sevimli oxucuları ilə bölüşmək qərarına gəldim.

***– Mümkünsə, bu barədə bir az ətraflı məlumat verin.***

– Həmin kitab böyük Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının fəlsəfi tədqiqinə həsr olunub. Müəllifi İran İslam Respublikasının şiə filosofu, əllamə Məhəmmədtəqi Cəfəridir. İranda nəşr olunub-olunmadığı bəlli olmayan, fars dilindən tərcümə edildiyi bildirilən bu nəşrin adı da belədir: “Nizami Gəncəvinin şeirlərində hikmət, ürfan və etik mövzular”. İlk baxışda böyük bəşəri ideallar tərənnümçüsü Nizami Gəncəvi yaradıcılığına müraciət etmək işində qəribə bir şey yoxdur. Amma məsələyə dərindən fikir verəndə başqa mətləblər, bəd niyyətlər ortaya çıxır.

***– O hansı mətləblərdir?***

– Adətən, bir dildən başqa dilə tərcümə işi ilə məşğul olanlar elm, ədəbiyyat və mədəniyyət adamları olur. Amma çox qəribədir ki, bu kitabı dilimizə tərcümə edən, ona ön söz, təqdimat yazan şəxslər İran İslam Respublikası Xarici İşlər Nazirliyinin əməkdaşlarıdır. Radikal şiəçilik ideologiyasının ixracına və təbliğinə xidmət edən bu kitabın Azərbaycana necə yol tapması, dövlət idarələrinə hədiyyə şəklində paylanması da başqa bir məsələdir. Əsas mətləb isə aşağıdakı kimidir.

İranın millətçilərinin dəmtutanlarından olan Məhəmmədtəqi Cəfəri bu kitabında dünya ədəbi fikrinin, az qala, “şeirin Allahı” kimi qəbul etdiyi dahi Nizami Gəncəvi haqqında elmi əsası olmayan qeyri-etik fikirlər səsləndirmiş, Nizaminin şeiriyyət və söz sənətkarlığına kölgə salmağa çalışmışdır. Görünən budur ki, bu əsəri yazmaq qəsdinə düşən müəllif nizamişünasları və onların sanballı əsərlərini kənara qoyaraq özünün “dar və naqis şəxsi pəncərəsindən” baxmaqla dahi Nizami Gəncəvi ədəbi irsinə birtərəfli şəkildə nəzər salır. Və gəlinən qənaətlər onu göstərir ki, alim heç də gördüklərini deyil, şəxsən axtardıqlarını iddia edir.

***– Nizami kimi dünya şöhrətli və geniş öyrənilmiş bir mütəfəkkir şair barədə subyektiv, həm də cəfəng mülahizələr toqquşdurmaq yalnız sifariş və muzdlu xidmət ola bilər...***

– Təəssüf ki, bu əsər Nizami Gəncəvi yaradıcılığı haqqında əsassız və birtərəfli müddəa və fikirlərlə doludur. Ona görə də dediyiniz “sifariş və muzdlu xidmət” məsələsi istisna edilmir. Əks halda, müəllif ya ağlını, ya da məsuliyyətini itirib. Başabəla Cəfəri dini ibadətin növlərindən, dua və onun növlərindən söz açır, şeir, poeziya haqqında uzun-uzun fikirlər söyləyir. O, Məhəmməd peyğəmbərdən başlayır, İmam Əlinin şeirlərindən bəhs edir, şairlərin yalan danışmasından, vəsf etdikləri obyekti, həqiqəti təhrif etməsindən şikayət edir.

Qurana əsaslanan müəllif şeiri və şairliyi inkar edir. Guya, Quran ayələrinə əsaslanaraq şairliyi dəlilik kimi təsdiqə çatdırmağa çalışır. Bu inkaredici fikirlərini, istinad üçün gətirilən Quran ayələrinin ardından müəllif “islam şeiri” kimi bir məfhum irəli sürüb onun təsdiqi ilə məşğul olur. Müəllifin şeirə verdiyi tərifdən “ideologiyaya pərçimlənmiş şeir” mülahizəsi açıq-aydın ortaya çıxır. Lüzum olmadığı halda mövzudan kənara çıxaraq şiə imamlarının ədəbiyyata münasibətindən uzun-uzadı söhbət açır.

Ən nəhayət, mətləb üstünə qayıdan bu başabəla alim böyük ustad Nizami Gəncəvinin oğluna nəsihətdəki bir beytdən: “Şeirə dolaşıb fənninə girmə, çünki yalanı daha gözəldir” fikrindən yapışıb bu misralardakı düşüncələri “şeir haqqında söylənən mənfi fikir” adlandırır. Müəllifin “Şairlik üçün təbi-rəvan gərəkdir, sözə hər don geydirən şair olmaz” beytini də dahi Nizaminin “vicdan əzabı” kimi dəyərləndirməsi, “Məgər insanların həqiqi günəşə olan ehtiyacını şairin sehrəngiz intizamlı yalançı buludları ilə örtüb puç və boş qələmə vermək olarmı?” kimi mürtəce qənaət və nəticə ifadə etməsi qüdrətli söz ustasının nadir şairlik istedadını gözdən salmaq niyyətini açıq-aydın göstərir.

***(ardı var)***

***Hazırladı:***
***Tahir AYDINOĞLU, “Xalq qəzeti”***

**Azərbaycanın Xalq yazıçısı, professor Əzizə Cəfərzadə, ilk dəfə olaraq 1974-cü ildə Cənubi Azərbaycanın aşıq və şair qadınları haqqında da məlumat verən, Azərbaycan qadınlığının bir növ poetik salnaməsi adlandırılan, daha çox ah-fəryad səsləri ucalan “Azərbaycanın aşıq və şair qadınları” adlı antologiyanı “Gənclik” nəşriyyatında çap etdirmişdi.**

# “Mələk xislətli, tuti dilli, ər ürəkli Mərziyyə!”

Keşməkeşli həyatını, böyük vətənpərvərlik hisslərini şeirin diliylə əbədiləşdirmiş, qısa, lakin çoxmənalı ömrünün şeirə dönmüş qəlpələrini bizə yadigar qoyub getmiş fədai şair Mərziyyə Əhmədi Üskülü Dalğanın həyatı və fəaliyyəti haqqına qısa məlumatın və “Mən Günəşi sevirəm”, “Dalğa”, “Mən və Dəmavənd” əsərlərinin də yer aldığı “Azərbaycanın aşıq və şair qadınları antologiyası” 2005-ci ildə yenidən Ə.Cəfərzadənin tərtibində “Avrasiya Press” nəşriyyatında çap edilib.

hekayələr yazdın, yaşıdlarının inqilabi mübarizə yolu haqqında böyük bir xatirat yazıb İranın fədai gənclərinin mübarizə yolunu işıqlandırdın. Bütün bunlar yaşının ölçüsünə sığmır, mənim balam!”.

Professor Əzizə Cəfərzadə Mərziyyə Üskülünün “savak”çılarla gərgin mübarizədə neçə-neçə şah nökərini öldürdükdən sonra amansızcasına güllələnməsinə ağı deyirdi: “Sən hələ nələr yazardın, nələr yarada bilərdin, lakin qoymadılar. Güllələdilər səni... Bu, adi atışmada atılan güllə deyildi.



Xalq yazıçısı Ə.Cəfərzadənin alovlu şair, istedadlı nasir, publisist, fədakar müəllim, yalnız Cənubi Azərbaycanda deyil, İranda, bir çox Şərq ölkələrində milli qurtuluş hərəkatının iradəli yolçusu, xalqımızın əfsanəvi igid qızı kimi tanınan Mərziyyə Əhmədi Üskülüyə məhəbbəti daha çox idi. O, cənublu xanım şairə doğma ana məhəbbəti bəsləyirdi. Onu “qızı”, “gəlinim”, “balam” adlandırırdı.

Mərziyyə Əhmədi Üskülünü Azərbaycanın bu tayında tanıdan ikinci yazı olan “Səni kim unudar, Mərziyyə!” adlı məqaləsində Ə.Cəfərzadə yazırdı: “Şəklinə baxıram sadə bir qız, nəcib bir insan, ziyalı bir müəllim canlanır gözlərimdə. Səndə nə böyük istedad, nə böyük təpər varmış. Az ömründə gördüyün işlər hesablansa, kitaba sığmaz, Mərziyyə xanım! Amma mən sənə xanım da deyə bilmirəm, ana öz balasına xanım deyərmi? Sən mənim xalqımın istedadlı, gənc qəlbini el uğrunda şam kimi şöləlҙndirən balasısan! Silaha sarıldın, atəş açdın o zərif əllərinlə, nifrət yağdırdın - gül yarpağı dodaqlarınla, zəmanənin zöhhaklarına qarşı üsyana çağırdın - qızlıq səsinlə!

Mərziyəcan! Sən dünyada 29 il yaşadın. Bu 29 ildə nələr etdin, nələr etmədin, gizli dərnəklərdə dünyanın ən mütərəqqi inqilabi nəzəriyyələrini öyrəndin və öyrətdin, şeirlər yazdın, Səhər saat 10-da “Sübhün nazəndə çağında” amma elə o gün sənə dəyən güllələr səni İran xalqının mübarizə tarixinə yazdı, qanla yazdı, silinməz əbədi xətlə yazdı. Cəngavərlik səhifəsində sən Janna d`Arkın daha şöhrətli, mələk xislətli, tuti dilli, ər ürəkli igidim!”

Əzizə xanım 1987-ci ildə qələmə aldığı “Yora bilməz yollar sizi...” (Cənubi Azərbaycanda yaşayan qadın şairlərin yaradıcılığı haqqında) adlı məqaləsində də M.Ə.Üskülüyə, onun yaradıcılığına səmimi münasibətini bildirmişdi.

Güney Azərbaycan vətənpərvəri, adını tarixə qızıl qanı ilə həkk edən M.Ə.Üskülünün taleyindən “Mərziyyə” poemasında yanıqlı bir dillə, poetik ehtirasla söhbət açan Xalq şairi Bəxtiyar Vahabzadənin də, “Hər kəs Günəşi sevsə” poemasında “Bu sədlərin, sərhədlərin üzərindən qanımı qaynadan qardaş duyğusu nə nağıldı, nə fərziyə!” söyləyən Xalq şairi Sabir Rüstəmxanlının da, Xalq yazıçısı Əzizə Cəfərzadənin fəryad dolu “Səni kim unudar, Mərziyyə!” məqaləsinin çapını təşkil edən, onun surətini çoxaltdırıb geniş oxucu kütləsi arasında yayan professor Abbas Zamanovun da xalqımızın igid qızı Mərziyyə Əhmədi Üskülüyə məhəbbəti sonsuz idi.

***Lətifə MİRZƏYEVA,***
***Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun böyük elmi işçisi***

# Şəhriyarın “Bakı miniatürləri” necə yaranmışdı?

**İnsafən, Şəhriyar yaradıcılığı Arazın bu tayında zaman-zaman qədərincə tanıdılıb. Sovet zamanında şeirləri, poemaları Bakıda işıq üzü görüb. 1979-cu il İran inqilabından 1985-ci il sovet yenidən qurmasına doğru Quzey Azərbaycanda Şəhriyar şəxsiyyətinə və yaradıcılığına maraq görünməmiş dərəcədə artdı.**

Həmin dövrdə Bakıda buraxılmış əl boyda bir kitaba çəkilmiş illüstrasiyalar isə xüsusi maraq doğurdu. Hamı Şəhriyarın “Bakı portretləri”nin və əsərlərinə çəkilmiş şövqlü miniatürlərin müəllifinin kimliyi barədə maraqlandı və bu barədə AzTv böyük rezonans doğuran bir veriliş də hazırladı. İllər əvvəl Arazın bu tayında Şəhriyar sevgisini yenidən alovlandırmış həmin rəsmlərin müəllifi kim idi? Tədqiqatçı jurnalist Elmin Nurinin bu sualı cavablandıran müsahibəsini təqdim edirik:

**“Budəfəki müsahibimiz Əlyazmalar İnstitutunun baş rəssamı, miniatür sənətinin ən peşəkar davamçılarından biri Fəxrəddin Əlidir. Fəxrəddin bəy Güney sevdalısı kimi də tanınır. Şimali Azərbaycandan böyük Məhəmmədhüseyn Şəhriyarla ilk əlaqə quran sənətçi olmaqla yanaşı, bu tayda onun portretini çəkən ilk rəssam kimi də tanınır.**

***– Fəxrəddin müəllim, necə oldu ki, 40 il əvvəl Şəhriyar obrazına müraciət etdiniz?***

– Milli hökumətin süqutundan sonra Cənubi Azərbaycandan Bakıya gəlmiş alim Qulamhüseyn Beqdeli İran inqilabından sonra mənimlə söhbət zamanı



dedi: “Bu yaxınlarda İrana gedəcəm, sən gəl Şəhriyarın əsərlərinə miniatürlər çək”. Mən də “Heydərbabaya salam” poemasına 60-a yaxın miniatür işlədim. O, gözəl xəttat idi. Mən çəkdiyim miniatürlərə uyğun olaraq sözlər yazdı. İndinin özündə də Şəhriyara heç kəs müraciət etməyib. O, eynən Füzulinin aqibətini yaşayıb. Nizaminin, Xətainin əsərlərinə miniatür çəkilib, amma Füzuli qalıb kənarda...

***– Deyəsən, siz Füzulinin də əsərlərinə miniatürlər çəkmisiniz?***

– Mən bütün klassiklərə miniatür çəkmişəm. Ədəbiyyatımızda Qətran Təbrizi, Dədə Qorquddan belə Əlağa Vahidə qədər hamısına miniatür çəkmişəm. Biz Qulamhüseyn müəllimlə Şəhriyarın miniatürlərini yaratdıq. Sonra o çıxdı getdi Təbrizə...

***– Şəhriyarın portreti necə yarandı?***

– Beqdeli mənə dedi ki, “Şəhriyarın portretin çək, mən onu aparım”. Dedim ki, baş üstə. Şəhriyarın portretini işlədim. Düzdü, onun fotosuna baxdım, amma kompozisiya mənə məxsus idi. Dağlar, yaşıllıqlar və s. Mənzərələri də portretə əlavə etdim. Bəydili portreti Təbrizə aparanda mən onu yola saldım. Bizə imkan vermirdilər. Portreti keçirmək olmazdı. Bir yəhudi arvaddan naxışlı çərçivə almışdıq. Çox qədim və möhtəşəm çərçivə idi. Dedilər ki, yox buna icazə vermək olmaz. Nəhayət, Beqdeli bir siyasət işlətdi. Yalandan dedi: “Bu mənim atamın portretidir, qoymaram ki, burda qalsın”.

O vaxtlar da ara qarışmışdı. Portretin kimə məxsusluğunu tanımadılar. Dedilər ki, yaxşı apar, amma bu çərçivəni qoparmalısınız, Nikolay dövründən qalıb. Nə isə çərçivəni çıxartdıq. Dünya miqyasında bir qanun var ki, bir sənət əsərini başqa ölkəyə aparmaq olmaz. Gərək xüsusi komissiyada onun sənət dəyəri heçə endirilsin ki, həmin əsəri başqa yerə aparmaq olsun. Amma biz istəyirdik ki, Şəhriyar bu portreti görsün.

***– Şəhriyar o portereti görə bilmişdimi?***

–1990-cı ildə Tehranda Beqdelinin “Şəhriyarla görüş” adlı kitabı çıxmışdı. Bu kitabda o yazırdı: “Mən ilk dəfə Şəhriyarın görüşünə çıxanda eyvanda durmuşdu. Yaxınına gəldim. İstədim ayağından öpəm, imkan vermədi, əlindən öpməyə çalışdım, yenə imkan vermədi, məni tanıyırdı. Məni görəndə ağladı. Dedim ki, ay ustad, sənin Bakıdan bir portretini gətirmişəm. Orda Fəxrəddin adında bir nəqqaş var, o sənin portretini çəkib. Dedi hardadı portret? Dedim, aşağıda maşındadır. Tez düşdüm gətirdim. Çox şadlandı, kövrəldi də”.

Ondan sonra Beqdeli Bakıya gələndə mən onun əsərlərinə çəkilmiş miniatürləri də verdim ki, Şəhriyara aparsın. Şəhriyar deyib ki, “Fəxrəddin bizim qardaşımızdır. Mən onun boynunu qucaqlayıb əllərindən öpürəm”. Portret bu taydan o taya aparılan gözəl bir ərməğan oldu.

Sonradan Təbrizdə mənim Şəhriyara aid bir kitabım da çıxdı. 15 miniatürüm də o kitabda var. Mən də sevindim ki, axır ki orda da mənim kitabım çıxdı. Kitabda Şəhriyarın mənə dediyi sözlər də yazılmışdı.

***–Nə yazılmışdı ?***

–Yazılmışdı: “Əllərinə qurban olum, nə gözəl şəkillərdir. Məni indiyə qədər heç kəs saymayıb. Adımı belə tutmayıblar. O taylı qardaşımın göndərdiyi şəkil mənim üçün ən dəyərli hədiyyədir”.

***–Telefon danışıqlarınız da olubmuş ....***

– Bir gün həmin Beqdeliyə dedim ki, Şəhriyarın telefon nömrəsini mənə versin. Təbriz, Məqsudiyyə küçəsi, 38 nömrəli evdə yaşayırdı. Zəng vurdum, əvvəlcə oğlu götürdü, sonra ustadın özünə verdi. Dedim ki, ustad mənəm, Bakıdan sənin portretini çəkən Fəxrəddin. O bunu eşidib çox kövrəldi. Onunla əlaqə quran ilk sənətçi mən olmuşam. Mən onunla danışanda nə Bəxtiyar Vahabzadə, nə də Süleyman Rüstəm onun səsini eşitmişdi.

***–Həmin danışıqdan yadınızda nə qalıb?***

–Demişdi: “Fəxrəddin sənin əllərinə qurban olum”. Cavab verirdim ki, ustad elə demə, mən sənə qurban olum. Vəziyyəti çox ağır idi. Həyat yoldaşı da çox pis halda idi. Şəhriyar mənə demişdi ki, ay Fəxrəddin, kaş mən öləydim onun yerinə. Bu qoca vaxtımda nə bəlaya düçar olmuşam. Mən ona təsəlli verməyə çalışırdım.




Çox vaxt ikimiz də kövrəlirdik.

Atam yaşında kişi idi, onunla danışanda, elə bil, atamla danışırdım. Deyirdim ki, ustad, hər şey yaxşı olacaq belə deməyin, biz sizin yolunuzu gözləyirik. Hətta arzumuz var ki, sizi təyyarə limanından şəhərə qədər çiyinlərimizdə gətirək”. Amma onun gəlməyinə imkan vermədilər.

***–Şəhriyarla bağlı daha nələr etmisiniz?***

–Seçilmiş əsərlərini buraxmışam. Mənim xeyli miniatürlərim də o əsərlərin içində var.

***Elmin NURİ ”.***

***Çapa hazırladı:***
***T. RÜSTƏMLİ, “Xalq qəzeti”***

# Sprint yarışında “Red Bull Racing”in pilotu qalib oldu

## Paytaxtımızda ildırımsürətli bolidlərin mübarizəsi davam edir

**“Gözlənilməzə hazır ol” şüarı ilə keçirilən möhtəşəm Formula 1 Azərbaycan Qran-Prisi uğurla davam edir. Dünyanın ən sürətli avtomobillərinin mühərriklərindən çıxan ildırım gurultusuna bənzər səs Bakı trasında əks-səda verir. Bolid sürətli avtomobillər təhlükəli və sərt döngələrdə şütüdükcə tamaşaçılara adrenalin yaşadır.**



Yarışın ikinci günü sprint yürüşünün təsnifat turu ilə start götürüb. Hər biri iki pilotdan ibarət 10 komandanın qatıldığı təsnifat turu üç sessiyadan ibarət olub.

Yürüşün ümumi nəticəsinə görə, sprint yarışının start düzülüşü müəyyənləşib. “Ferrari” komandasının pilotu Şarl Lekler birinci olub. “Red Bull Racing”in pilotları Serxio Peres və Maks Ferstappen ilk üçlükdə qərarlaşıblar.



Sessiya vaxtı “Williams”ın pilotu Loqan Sarjent qəza törədib. Bolid təhlükəsizlik cəddinə çırpılaraq yararsız hala düşüb. Pilot ümumi sıralamada 11-ci olub, növbəti mərhələyə vəsiqə qazansa da, onun bolidi yarışı davam etdirmək üçün yararlı vəziyyətdə olmayıb.

Sonra isə “Formula 2” üzrə Azərbaycan Qran-prisi keçirilib. Gərgin keçən mübarizədə “Prema Racing”dən Oliver Bearman qalib adına layiq görülüb. “Prema Racing”dən Frederik Vesti ikinci, “Hitech”dən Jak Kroufurd üçüncü yeri tutublar.

Sonlara yaxın zərcirvari qəza baş verib və dörd pilot mübarizəni dayandırıb. Ümumilikdə 11 sürücü sonadək yarışa bilməyib.

Günün sonunda Azərbaycan Qran-Prisində sprint yarışları keçirilib. Gərgin keçən mübarizədə “Red Bull Racing” komandasının pilotu Serxio Peres sprint yürüşünün qalibi olub. “Ferrari”nin pilotu Şarl Lekler yarışı ikinci, S.Peresin komanda yoldaşı Maks Ferstappen isə üçüncü pillədə qərarlaşıblar. Yürüşə hər biri iki pilotdan ibarət 10 komanda qatılıb. İlk səkkiz pillədə qərarlaşan pilotlar xal qazanıblar.

Bununla da “Red Bull Racing”in pilotu Maks Ferstappen 75 xalla turnir cədvəlində liderliyini möhkəmləndirib. Yarışın qalibi olan və səkkiz xal qazanan “Red Bull Racing”in digər pilotu Serxio Peres ikincidir – 62 xal. Sprintdə ikinci olan Şarl Lekler yeddi xal əldə edib və 13 xalla ümumi sıralamada səkkizinci pilləyə yüksəlib. Turnir cədvəlində ilk üçülüyü “Aston Martin” komandasının pilotu Fernando Alonso tamamlayır. Onun aktivində 48 xal var.

Formula 1 Azərbaycan Qran-Prisi çərçivəsində Formula 1 pilotlarının iştirakı ilə “Fan Forum” baş tutub. Yarış həftəsi zamanı Formula 1 azarkeşlərinin həyəcanla gözlədikləri pilotlarla görüş - Fan Forum Dənizkənarı Bulvar ərazisində yerləşən Fanzonada keçirilib. Burada yerləşən səhnədə təşkil olunan sessiyada dünyaşöhrətli F1 pilotları avtoidman həvəskarları ilə görüşüblər. Komandalar üçün ayrılmış 20 dəqiqə ərzində azarkeşlər səhnədəki F1 ulduzlarını yaxından görmək imkanı əldə ediblər. Tədbirdə bütün F1 komandaları – “Alpha Tauri”, “Williams”, “Ferrari”, “Haas”, “Red Bull”, “Mercedes”, “Alpine”, “Mclaren”, “Aston Martin” və “Alfa Romeo” komandalarının pilotları iştirak ediblər.

Azərbaycan Qran-Prisi çərçivəsində aprelin 28-30-da Azərbaycan Avtomobil Federasiyasının təşkilatçılığı ilə klassik avtomobillərin sərgisi də böyük maraq doğurub. Formula 1-in fan zonasında azarkeşlərin maraqla izlədikləri müxtəlif illərə aid klassik avtomobillər nümayiş etdirilir.

AAF-ın avtomobil həvəskarlarına daha bir sürprizi aprelin 30-na təsadüf edəcək. Belə ki, Formula 1-in yarış halqasında klassik avtomobillərin yürüşü təşkil olunacaq. Yürüşə 30-a yaxın klassik avtomobil qatılacaq.

Qeyd edək ki, Azərbaycan Qran-Prisinin ilk günündə Formula 1 və Formula 2 üzrə sərbəst və sıralanma yarışları baş tutub. Sərbəst yürüşün qalibi “Preme Racing” komandasının pilotu Oliver Berman olub. İkinci pillədə “Hitech”in üzvü İsak Hajar, üçüncü yerdə isə “Campos Racing”dən Kuş Maini qərarlaşıblar. Oliver Berman sıralanma turunu da qələbə ilə başa vurub. “Rodin Carlin” komandasının üzvü Enzo Fittipaldi və “ART Grand Prix”in pilotu Teo Purşer sonrakı yerləri tutublar.

“Red Bull Racing” komandasının pilotu Maks Ferstappen Formula 1 üzrə sərbəst yarışda əlçatmaz olub. Şarl Lekler (“Ferrari”), Serxio Peres (“Red Bull Racing”) sonrakı yerləri tutublar. Sıralanma turunda isə Şarl Lekler qalib gəlməklə poul qazanıb. Bu, Ş.Leklərin cari mövsümün qazandığı ilk pouldur. Monakolu pilot Bakı şəhər halqasında ardıcıl üçüncü poul əldə edib. Aprelin 30-da keçiriləcək Azərbaycan Qran-Prisində Ş.Lekler yarışa birinci mövqedən start verəcək. Sıralanma turunda Maks Ferstappen ikinci, Serxio Peres isə üçüncü pillələrə sahib olublar.

*Leyla QURBANOVA,*
*“Xalq qəzeti”*

# Azərbaycan Qran-Prisi 2026-cı ilədək Formula 1 təqvimində qalacaq

**Azərbaycan Qran-Prisi 2026-cı ilədək Formula 1 təqvimində qalacaq. Bu barədə Formula 1-in rəsmi saytı məlumat yayıb. Formula 1-in prezidenti Stefano Domenikali Azərbaycan Qran-Prisi ilə müqavilənin uzadılması barədə danışarkən deyib ki, Azərbaycanla əlaqələrimizi genişləndirməkdən şadıq. Onun sözlərinə görə, birgə inkişafı davam etdirməyi səbirsizliklə gözləyirik.**




Cənab S. Domenikali Bakı Şəhər Halqasının Formula 1 üçün çox məşhur məkana çevrildiyini də vurğulayıb: “Bu həmişə maraqlı yarışa evsahibliyi edən inanılmaz trasdır”.

Bakıda keçirilən yarışlar da Formula 1-in prezidentinin sözlərini təsdiqləyir. Belə ki, paytaxtın mərkəzi küçələri xarici qonaqlarla doludur. Formula 1 Azərbaycana ilk dəfə gələn 2016-cı ildən bəri ilk dəfə olaraq 100-dən çox ölkədən azarkeşlər bilet alıblar. İndiyədək bunun heç vaxt olmadığını vurğulayırlar. Nəzərə alsaq ki, BMT-yə 193 ölkə daxildir, demək olar ki, dünyanın yarısı, hətta daha çoxu Bakıya təşrif buyurub. Bu, şübhəsiz ki, qarşıdan gələn Azərbaycan Qran-Prisinə böyük marağın sübutudur.

Formula 1 inanılmaz mübarizələrə səhnə olması ilə bərabər, həm də iqtisadi əhəmiyyəti olan yarışdır. Onun Bakıda keçirilməsi qeyri-neft sektorunun inkişafına valyuta daxil olması üçün əlavə əhəmiyyətli imkanlar yaradır. Eyni zamanda, Formula 1-in Azərbaycanda keçirilməsi ölkənin xaricdə tanıdılması baxımından əhəmiyyətli bir idman tədbiridir. Bu yarış, həmçinin ölkənin mədəniyyətinin, mətbəxinin və təhlükəsizliyinin nümayiş etdirilməsi üçün də unikal imkan yaradır. Turizmin inkişaf etməsi özü ilə kənd təsərrüfatı, xidmət, nəqliyyat, qida sektorunun da inkişafına təsir göstərir. Formula 1 mövsümü yeni iş yerlərinin açılışı, vergi ödəmələrində artım, kiçik və orta sahibkarların, əsasən də qida, xidmət, nəqliyyat sahəsində çalışanların gəlirinin artması, valyuta daxilolmasının çoxalması deməkdir. Odur ki, Formula 1-in daha üç il müddətinə uzadılması iqtisadi baxımdan da önəmli hadisədir.

*“Xalq qəzeti”*




# “Bakı halqası” bu gözəl şəhərin şöhrət boyunbağına çevrilib

## Sürət həvəskarları bolidlərin ötüşməsini Şərq şəhərində canlı izləməkdən məmnundurlar



**Niderlandlı Mark ter Mors** bir həftədən çoxdur ki, Bakıdadır. Deyir ki, darıxmamaq üçün dostu ilə birlikdə Azərbaycana səyahət edib: “Azərbaycan o ölkələrdəndir ki, son vaxtlar çoxlu informasiyalar eşidilir. Araşdırıb ölkənizlə bağlı məlumatlar əldə etmişdim. Bakı doğrudan da, gözəl şəhərdir. Burada insanların gülərüzlüyü, müasirliyi xüsusilə diqqətimi çəkdi. Bakının gəzməli və görməli yerləri ilə artıq tanış olmuşam. Eşitmişəm ki, Azərbaycanın regionlarında da istirahət etməli gözəl yerlər var. Növbəti illərdə yenidən ölkənizə gəlməyi planlaşdırıram. Formula 1-ə minnətdar olmalıyıq ki, bizi belə bir gözəl şəhərlə yaxın etdi”.

Sürət həvəskarı Formula 1-in Bakı yarışının yaddaşlarda xüsusilə dərin iz qoyacağını bildirdi: “Bakı Şəhər Halqasında keçirilən yarışları hər il izləmişəm. Amma gərgin anlarla dolu mübarizəyə canlı şahidlik etmək tam başqadır. Əminəm ki, Bakıda keçirilən Formula 1 yarışı tamaşaçıların yaddaşında dərin iz qoyacaq”.

**Sudanlı Leena Mussaad** sürət həvəskarıdır. Formula 1 dünya çempionatının demək olar ki, bütün mərhələlərini televiziyadan izlədiyini deyir. Yalnız Dubayda bu yarışlara canlı tamaşa edib: “Bakı trekində avtomobillərin yarışı tam başqadır. Burada hər an, hər saniyə sürprizlərlə doludur. Bakı trası sərt döngələri ilə çox maraqlıdır”.

Leena Mussaad Bakı, Azərbaycanla bağlı təəssüratlarını da bildirdi: “Şübhəsiz, yarışın təşkil olunduğu məkan da tamaşaçı üçün çox böyük əhəmiyyət kəsb edir. Bakı sanki sürət yarışına əlavə rəng qatır. Yarışdan sonra gecənin yarısınadək rəfiqəmlə birgə şəhəri gəzirik.



Yeməklərinizin tayı-bərabəri yoxdur. Kabab, üzüm yarpağından dolma, toyuq və badımcan ləvəngesini xüsusilə sevdim! Yarışdan sonra da bir neçə gün burada qalacağam. Artıq Bakıda dostlarım da var”.

**Pakistanlı Ecaz Danish** da Formula 1 həvəskarlarındandır. O bildirir ki, bu yarışın məhz Bakıda keçirilməsi onun cəlbediciliyini daha da artırır: “Düşünürəm ki, Formula 1-in şəhər traslarında təşkili onu daha da maraqlı edir. Ən sürətli Bakı



treki isə bu yarışa əlavə rəng qatır.

**İngiltərəli Laurence Edmandson** Formula 1 yarışlarının idman və əyləncə proqramı şəbəkəsində çalışır. O deyir ki, unikal Bakı trasında Formula 1 yarışları möhtəşəm keçir: “İstər yarış iştirakçıları, istərsə də azarkeşlər həmişə qeyd edirlər



ki, Bakı şəhər treki ən maraqlı traslardan biridir. Bu mötəbər yarışları Xəzər dənizi ətrafında, məhz Bakı şəhərində belə möhtəşəm trasda izləməkdən hamı zövq alır”.

Qonaq paytaxt Bakının təmiz və gözəl, yerli sakinlərin isə çox mehriban olduğunu vurğuladı: “Yarışın keçirildiyi ərazidə xarici turistlər həddindən artıq çoxdur. Onlar bir neçə gün ərzində sanki doğmalaşıblar. Düşünürəm ki, burada heç kim özünü yad hiss etmir. Bizə nəsə lazım olanda yoldan keçən istənilən şəxsə çəkinmədən müraciət edirik. Bilirik ki, əllərindən gələn köməyi edəcəklər. Yarışdan sonra gəzməyə çıxırıq. Bakı qədimliyi ilə yanaşı, həm də müasirliyi ilə bizi heyran edir”.

*L.SABİRQIZI,*
*Fidan HÜQUQQIZI,*
*“Xalq qəzeti”*

# Ölkəmizi qlobal idman ekranına çıxaran avtooyun

**Dünyanın ən populyar avtoidman yarışlarından biri olan Formula 1 davam edir. Bu yarışların ölkəmizdə keçirilməsi qürurvericidir. Keçirilən yarışlar ölkəmizin iqtisadi potensialına, eləcə də turizm sektorunun inkişafına müsbət təsir göstərir. Ölkəmizdə bu kimi beynəlxalq tədbirlərin keçirilməsində Azərbaycan gəncləri yaxından iştirak edirlər. Onlar yarış müddətində müxtəlif vəzifələrdə çalışaraq yeni təcrübələr əldə edir, nəzəri və praktiki təlimlərdə iştirak etməklə öz bacarıqlarını təkmilləşdirirlər.**

Yarışları izləmək üçün 100-dən çox ölkədən sürət həvəskarları, eləcə də yerli tamaşaçılar Bakıya gəlib. Formula 1 yarım milyarddan çox auditoriyaya sahib olduğundan yarışlar beynəlxalq səviyyədə ölkəmizin nüfuzunu artırır. Bunu ölkəmizə təşrif buyurmuş xarici qonaqlarla yanaşı, vətəndaşlarımız da bildirirlər.

**Sosial Problemlərin Həllinə Yardım İctimai Birliyinin sədri Habil Niftalı bildirdi ki,** artıq Azərbaycan dünya siyasi arenasında qalib ölkə kimi tanınır. “Tək bu yarış deyil, digər beynəlxalq yarışların da Azərbaycanda keçirilməsi, müxtə-



lif yarışlarda Azərbaycan bayrağının yüksəklərə qaldırılması Azərbaycanın dünyada tanıdılması baxımından önəm kəsb edir. Formula 1 yarışları ərəfəsində Azərbaycana çox sayda turist gəlir. Bunu həm bron edilən hotel nömrələrindən, həm də tur proqramlardan bilmək olur. Yarışlar dövründə ölkəyə gələn turistlər digər dövrlərdə gələnlərdən çox fərqlənirlər. Bu da yarışın ən yüksək səviyyədə keçirilməsi və daha üst səviyyəli bir yarış olmasından xəbər verir”.

**“1inci Academy” Təhsil Mərkəzinin meneceri Nərmin Yusifova isə bildirdi ki,** qlobal səviyyədə keçirilən bu yarışa baxmaq üçün dünyanın hər yerindən turistlər ölkəmizə axın edir: “Artıq 7 ildir ki,



davam edən yarışlar ölkəmizin tanınması, ölkəyə xarici vətəndaşların cəlb olunması baxımından çox müsbət hadisədir. Ölkəmizə turistlər axın edirlər. Azərbaycan qlobal səviyyədə tanınır. Formula 1 həyəcan və gərginliklə keçir. Yarış sayəsində fərqli ölkələrdən Bakıya gəlmiş qonaqlarla da tanış olmaq imkanımız yaranır. Eləcə də xarici ölkələrdə adımızın tez-tez hallanması çox gözəl haldır”.

*R.ABİŞOV,*
*“Xalq qəzeti”*

**Türkiyədən məktub**

# Anadoluda 50 ilin ehtiyaclarını qabaqlamış uğurlar

**“2023-cü il Cümhuriyyətimizin 100-cü ili içərisindəyik. Bu bir əsrdəki son 2 onillik Türkiyənin sürətli və hərtərəfli inkişafı ölkənin tarixində yüksək mərhələ təşkil edir”. Türkiyə Prezident Administrasiyası (PA) Təhlükəsizlik və Xarici Siyasət Komissiyasının üzvü, siyasətçi İsmail Safi “Xalq qəzeti”nə bu açıqlamasının davamında dedi:**




– Bu dönəmdə iqtisadiyyatda, infrastruktura, müdafiə sənayesinə önəmli yatırımlar edildi. Əvvəlki dövrdə Türkiyədə müasir yolların uzunluğu cəmi 3 min kilometr olduğu halda hazırda 21 min kilometrdən çox ən müasir modellərdə avtomobil yolları, dübel ikiqat yollarımız var. Yüzlərcə modern tunellər, metrolar, dəmiryolları, sürət qatarları, hava limanları inşa edildi. Bugünlərdə Ankara Sivas yüksək sürətli dəmir yolu xətti istifadəyə verildi. İndi İstanbuldan, Ankaradan Türkiyənin hər yerinə təyyarə ilə ucuz biletlə getmək mümkündür.

Şəhər xəstəxanalarına edilən yatırımlar səhiyyədə ciddi dəyişiklik yaratdı, xüsusilə pandemiya dönəmində Türkiyəni xilas etdi. Daha çox detallara varmaq istəmirəm. Amma 20 il içində görülən bütün bu işlər, edilən bu yatırımlar ölkəmizi bundan sonra 50 il idarə edə biləcək sərmayələrdir. Türkiyə iqtisadi gəlirlərinin önəmli bir hissəsini infrastruktura xərclədi. Ölkəmiz bundan sonra 50 il infrastruktura heç bir sərmayə qoymadan mövcud olanlarla davam edə bilər.



**Həmsöhbətim ölkənin müdafiə sənayesi sektoruna sərf edilən sərmayələrdən də bəhs etdi:**

– Türkiyə NATO-nun müttəfiqi olaraq, qarşıya qoyulan vəzifəni sağlam yöndə yerinə yetirsə də zamanla şahid olduq ki, əslində, ittifaq dostlarımız bizim təhlükəsizlik və müdafiə sənayemizin inkişafına mane olublar. Müdafiə sənayemizin bütün ehtiyaclarını illərlə bu ölkələrdən tədarük etmişik və bu sahəyə ən kiçik bir sərmayə qoymamışıq. Bu bağışlanacaq bir məsələ deyildi. Biz bu səhvi tez bir zamanda düzəltdik. Hazırda müdafiə sənayesində, təqribən, 70 faiz yerli və milli istehsala önəm verilib. Təyyarə, gəmi mühərrikindən tutmuş tank, raket, pilotsuz uçuş aparatlarına qədər milli istehsala nail olmuşuq. Sevindirici haldır ki, Azərbaycanla yanaşı, Yaxın və Orta Şərqdəki dostlarımızdan əlavə, Avropa ölkələri də Türkiyənin bu müdafiə məhsullarını idxal edirlər.

**İsmail Safi siyasi, strateji və hərbi cəhətdən mövqelərini möhkəmləndirən Türkiyənin bu inkişafından narahat olan dairələrin qısqanc münasibətindən də söz açdı:**

– Misal göstərmək olarsa, bunlardan ən önəmlisi Suriya idi. Biz Amerikanı dost, müttəfiq sansaq da, təəssüf ki, Türkiyənin düşmənlərini, terror təşkilatlarını dəstəklədi. Sərhədlərimizdə, Suriyanın şimalında bir terror dövləti qurmağa cəhd göstərdilər. Amma Türkiyə böyük bir qərarlılıqla, hətta 15 iyul 2016-cı ildə ölkəmizdə dövlət çevrilişinə cəhd edilən günün sabahısı o ərazilərə müdaxilə edərək terror yuvalarını məhv etdi. Bundan başqa, Türkiyənin səyləri ilə Liviyada sülh bərqərar oldu.

**Siyasətçi Türkiyə – Rusiya münasibətlərinə də toxundu:**

– Rusiya ilə münasibətlər Türkiyə üçün böyük əhəmiyyət kəsb edir. Türkiyə çox balanslı, ağıllı siyasət tətbiq edərək həm Rusiyanın, həm də Ukraynanın təqdirini qazanıb. Çünki güclü dövlətlər arasında Türkiyə, bəlkə də, Rusiya və Ukrayna arasında sülhün bərqərar olması üçün çalışan yeganə ölkədir.

**Ölkəsinin Türk dünyası ilə bağlı çox dəyərli fəaliyyətinin olduğunu bildirən İsmail Safi dedi:**

– Türkiyə ilə türk dövlətləri əvvəllər də sıx əməkdaşlığın qurulmasında maraqlı olub. Amma bunun üçün də Türkiyənin iqtisadi vəziyyətinin əlverişli olması böyük əhəmiyyət daşıyırdı ki, bu da bizim günlərdə mümkün oldu. Doğrudur, bütün hökumətlər Türk dünyası ilə yaxşı münasibətlərə cəhd etdilər. Amma təbii ki, bu həm də iqtisadiyyata bağlı olan məsələdir. Xüsusilə 90-cı illərdə türk respublikalarının Türkiyəyə daha çox ehtiyacı olduğu dönəmlərdə, təəssüf ki, ölkəmiz iqtisadi baxımdan güclü olmadığına görə kifayət qədər dəstəyini verə bilməyib. Amma bu durum son illərdə sürətlə kompensasiya edildi.

Güclü bir Türkiyə, başda Azərbaycan olmaqla Türk dünyasına, dəstək oldu. Ölkəmiz Qarabağ savaşında Qərb tərəfindən təklənmiş Azərbaycanın haqlı mücadiləsini qətiyyətlə müdafiə etdi. Qarabağın terrorçu ermənilərin işğalından təmizlənməsində və azad edilməsində Türkiyə tərəddüdsüz və qərarlı bir şəkildə Azərbaycanın yanında oldu. Eyni şəkildə, Özbəkistanda, Qırğızıstanda yaşanan münaqişələrdə, Türkmənistanın türk dünyasında daha fəal yer almasında Türkiyənin rolu inkaredilməzdir.

Türk dünyası ilə bağlı qurulmuş olan Türk Şurasının (Türk Konseyi) Türk Dövlətləri Təşkilatına (TDT) çevrilməsində Türkiyənin əməyi və dəstəyi həlledici oldu. Hazırda Orta Asiya bölgəsindən Qafqaz, Balkan ölkələri, Anadolu, Yaxın və Orta Şərqə qədər ərazilərdə müstəqil, azad Türk cümhuriyyətləri bir təşkilat halına gələrək çox güclü bir struktur olma yolunda sürətlə və qərarlılıqla irəliləyir.

**Həmsöhbətim Türkiyə Cümhuriyyətinin 100 illik yubileyinin Türk dünyası üçün də önəmli və əlamətdar bir tarix sayıldığını söylədi:**

– Bu il Türkiyə Cümhuriyyətinin 100 illiyi ilə yanaşı, Türklərin tarix səhnəsində aparıcı rola sahiblənməsinin də 1000 illiyi gündəmə gəlib. Türklər son minillikdə Yaxın və Orta Şərqdə, Balkanlarda, Orta Asiyada meydana gələn Türk dövlətləri ilə çox güclü, böyük mədəniyyətlər qurdular. Son 200 ildə zəifləyən Türk dünyası başda Türkiyə, Azərbaycan və Orta Asiyanın bütün Türk cümhuriyyətləri olmaqla, son yüzillikdə yeni bir ruh və enerji ilə çağdaş tarixdə fəal rol qazandı. Bu birliyi hamımız görür və təqdir edirik”.

***Söhbəti hazırladı: Mehparə SULTANOVA, “Xalq qəzeti”***

**Ankara**

# Ukrayna əks-hücum hazırlıqlarını başa çatdırıb

**Ukrayna əks-hücumla bağlı hazırlıqlarını başa çatdırıb. Bununla yanaşı, Kiyev bir sıra cəbhələrdə döyüşləri də uğurla davam etdirir. Dünən Ukrayna ordusu Xerson vilayətində də əks-hücum əməliyyatı həyata keçirib, Rusiya ordusunun sursat anbarlarına, canlı qüvvə və hərbi texnikanın cəmləşmə yerlərinə zərbələr endirib. Bu barədə “Cənub” operativ komandanlığının nümayəndəsi Natalya Qumenyuk bəyan edib. Məlumatı “Euronews” verib.**



Bir gün əvvəl Ukraynanın müdafiə naziri Aleksey Reznikov da bəyan etmişdi ki, Silahlı Qüvvələr çoxdan gözlənilən yaz əks-hücumuna hazırlıqları başa çatdırır və ordu, ümumiyyətlə, hazırdır. “Ukrayna artıq çoxlu müasir texnika, çoxlu sayda müxtəlif tipli zirehli maşın, məsələn, “Bredley”, “Marder”, “Stryker” alıb: “Bundan əlavə, İsveçdən CV-90 alınacaq. Hazırda qoşunlar komandanlığın hücum qərarını gözləyir”, – deyə Reznikov bildirmişdi.

Dünən Ukrayna Prezidenti Volodimir Zelenski də deyib ki, Ukraynanın əks-hücum planına Krımın işğaldan azad edilməsi də daxildir. Onun sözlərinə görə, Ukraynanın uğuru əsasən Qərbin davamlı silah təchizatından asılıdır.

Təbii ki, Rusiya da özünün mövqelərini gücləndirməyə çalışır. RF-nin Ukrayna ərazisindəki qüvvələri Zaporojye AES ətrafında hərbi cəhətcə möhkəmlənmək üçün tədbirlərini artırıb. Bu, Zaporojye vilayətindəki Kaxovka su anbarının şərqindəki mövqeləri əldə saxlamaq üçün edilir.

Dünən Böyük Britaniyanın Müdafiə Nazirliyi peyk çəkilişlərinə əsaslanaraq, belə bir məlumat yayıb ki, Rusiya qüvvələri Avropada ən böyük atom elektrik stansiyası olan Zaporojye AES-in bir neçə reaktorunun damında da atəş nöqtələri yaradır.

Qeyd edək ki, Rusiya AES-ə nəzarəti 2022-ci ilin martında ələ keçirib. Ancaq bu, ilk haldır ki, reaktorların yerləşmiş olduğu bina müdafiənin taktiki planlaşmasına daxil edilir. Görünür, Rusiya bu mövqeləri ona görə qurur ki, Ukraynanın qarşıdakı böyük əks-hücumundan narahatdır. Bu addım isə AES ətrafında döyüşlərin gedəcəyi təqdirdə onun təhlükəsizlik sisteminin pozulması ehtimalını artırır. Amma adi atıcı silahlardan reaktorların zədələnməsi ehtimalı azdır, çünki stansiyanın konstruksiyaları çox möhkəm qurulub.

Ukrayna Silahlı Qüvvələrinin Dneprin aşağı axarında, Xerson rayonunun Korsunka məntəqəsindən şimaldakı mövqelərdə, eləcə də Rıbalçe kəndindən cənub-şərqdə olan Rusiya obyektlərinə və Kozaçi Laqeri kəndindəki rus ordusuna məxsus müşahidə məntəqəsinə endirdiyi zərbələri uğurlu hesab etmək olar. Bunu geolokasiya kadrlarından da görmək mümkündür.

Natalya Qumelyuk da təsdiq edib ki, Ukrayna ordusu Xerson vilayətində həyata keçirdiyi əks-hücumları artıq planlı şəkildə aparır.

Bununla yanaşı, Ukrayna taxılının dünya bazarlarına çıxarılması ilə bağlı mövcud problemlərin aradan qaldırılması istiqamətində də beynəlxalq səylər davam etdirilir. Dünən Brüsseldə Ukraynanın müharibə gedən ərazilərindən taxıl və digər bitkilərin idxalını və tranzitini birtərəfli qaydada məhdudlaşdırmış 5 ölkəyə qadağaların ləğvi müqabilində ciddi dəstək verilməsi təklif edilib. Avropa Komissiyası Ukraynadan Avropa İttifaqına buğda, qarğıdalı, kolza və günəbaxan ixracını məhdudlaşdırmış və taxıl ehtiyatlarının çoxluğundan zərər çəkmiş 5 ölkənin fermerlərinə birtərəfli qaydada 100 milyon avro yardım göstərilməsi barədə razılıq əldə edib.

Bu barədə dünən Avropa Komissiyası sədrinin müavini Valdis Dombrovskis özünün “twitter” hesabında yazıb. O, Ukrayna taxılının idxalına qadağa qoymadığı üçün Rumıniyanın Avropa Komissiyasından yardım alacağını bildirib: “Avropa Komissiyası Ukraynadan gətirilən ərzaq məhsulları ilə bağlı Polşa, Macarıstan, Slovakiya, Rumıniya və Bolqarıstanla razılığa gəlib. Müqavilənin əsas elementləri: idxala milli məhdudiyyətlərin ləğvi, dörd növ məhsul - buğda, qarğıdalı, kolza və günəbaxan üçün müstəsna ehtiyat tədbirlərinin tətbiqi, təsirə məruz qalan 5 ölkədə fermerlərə 100 milyon avro yardım göstəriləcək”.

Dombrovskis həmçinin vurğulayıb ki, Avropa İttifaqı gələcəkdə Ukraynadan günəbaxan yağı və bir sıra digər məhsulların idxalına əlavə məhdudiyyətlər tətbiq edə bilər. Avropa Komissiyası bu məhsulların məhdudiyyətsiz idxalının avropalı istehsalçılara vurduğu zərərin həcmini müəyyən etmək üçün araşdırmalara başlamağa söz verib.

“Avropa Komissiyası həmrəylik olaraq quru və çay marşrutları ilə digər ölkələrə də Ukraynadan ərzaq ixracını təmin etməyə çalışacaq”, – deyə Dombrovskis qeyd edib. Varşava, Budapeşt, Bratislava, Sofiya və Buxarestlə üçüncü ölkələrə idxal və tranzitlə bağlı əldə olunmuş razılaşmaları Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen də bəyənib: “Bu razılaşma sayəsində Ukrayna dünyanı yedizdirməkdə davam edəcək, bizim fermerlərin isə yaşamaq üçün vəsaiti olacaq”.

***Paşa ƏMİRCANOV, “Xalq qəzeti”***

# Yeni qlobal düzən: bir, yoxsa çoxqütblü dünya?!

**Planetimizdə yeni dünya düzəni yaranmağa başlayır, ən azı hazırda onun bir çox səciyyəvi cizgiləri sezilməkdədir. “Böyük yeddilər” ilə “Pekin-Moskva-Tehran oxu”nda birləşən dövlətlər bir-birlərinə meydan oxumağa başlayıb. Belə ki, hər iki tərəf dünyada siyasi, iqtisadi və hərbi hökmranlığa iddialıdır.**




Görünən budur ki, qlobal siyasət meridianlarında qütbləşmə artıq diplomatik mərhələdən əzələ nümayişi müstəvisinə keçir. Vaşinqton və Pekin həlledici döyüşlərə qədər öz müttəfiqlərinin sayını artırmağa və bu yolla komandalarını gücləndirməyə tələsir. Mövqelər artıq ortadadır. Kim kimin yanındadır, o da bəllidir.

İki həftə əvvəl Pekində rəsmi səfərdə olan Braziliya Prezidenti Lula da Silvanın bəyanatlarından bəlli oldu ki, Latın Amerikasının ən böyük ölkəsi də Çinin “lokomotiv”i olduğu ekspress qatarında yer alır. Lakin hələlik Vaşinqtonla Pekin arasında seçim etməkdə tərəddüd edən ölkələr də az deyil. Yəqin ki, tezliklə onlar da son qərarlarını verməli olacaqlar.

Bir müddət əvvəl “Böyük yeddilər”in XİN rəhbərləri Yaponiyanın Karuizava kurort şəhərində bir araya gələrək planetin üzləşdiyi siyasi və hərbi böhranlardan çıxış yollarını müzakirə ediblər. Gərgin keçən müzakirələr üç gün davam edib.

Dünyadakı prosesləri Təhlükəsizlik Şurasından (TŞ) daha çox Qərbin yeddi zəngin dövləti yönləndirir. “Sarı əjdaha” və müttəfiqlər isə bununla razılaşmır, “biz də səhnədəyik, ayaqdayıq” deyirlər.

Yeri gəlmişkən, mayın ortalarında “Böyük yeddilər”in liderləri Xirosimada toplaşacaqlar. Bu şəhərin adı çəkiləndə qeyri-ixtiyari olaraq narahat oluruq. Axı bu həmin Xirosimadır ki, 1945-ci ilin sentyabrında ABŞ Prezidenti Trumenin göstərişi ilə oraya atom bombası atılıb. Eyni acı taleyi digər yapon şəhəri Naqasaki də yaşayıb.

Amma siyasətdə daimi dostlar olmadığı kimi, əbədi düşmənlər də olmur. Taleyin istehzasına baxın ki, indi Yaponiya Birləşmiş Ştatların Sakit okean hövzəsində ən yaxın tərəfdaşıdır. Şübhəsiz, Tokionu Vaşinqtona yaxınlaşdıran əsas səbəb əzəli rəqibi Çinin sürətlə artan hərbi və iqtisadi gücüdür. Seul da Şimali Koreyanın təhdidlərindən qorunmaq üçün ABŞ-ın himayəsinə sığınıb.

Bəli, 78 il əvvəl “Gündoğar ölkə”nin iki şəhərinə atılan ilk və son nüvə silahı bu gün bütün dünyanın başı üzərində bir kabus kimi dolaşır. Şimali Koreya diktatoru Kim Çen In isə az qala hər həftə yeni nüvə sınaqları keçirir və bu yolla təkcə Yaponiyanın deyil, hətta ABŞ-ın da gözünün odunu almağa çalışır.

Bu yandan da bir çox dövlətlərarası beynəlxalq hüquq normaları faktiki olaraq işləmir. BMT Təhlükəsizlik Şurasının beş daimi üzvündən ikisi –Çin və Rusiya Şimali Koreya liderinə “gözün üstə qaşın var” demir. Bu məqamda çağdaş dünyanın ən müdrik və xarizmatik dövlət başçılarından olan Rəcəb Tayyib Ərdoğanın məşhur “dünya beşdən böyükdür!” ifadəsi yada düşür.

Rusiya–Ukrayna müharibəsi, Çinin Tayvana mümkün hərbi təcavüzü, özünü dəcəl uşaq kimi aparan Şimali Koreyanın nüvə hədələri, Suriyada, Yəməndə, son günlər isə Sudanda ağır zorakılıqlarla müşahidə olunan qanlı toqquşmalar və s. hazırda müasir dünyanın siyasi mənzərəsinin əsas mövzularıdır. Bütün bu ağır problemləri həll etmək mümkün olacaqmı? Təəssüf ki, suala birmənalı cavab vemək çətindir.

Yaxın Şərq planetimizin ən həssas nöqtəsi olaraq qalır. Hətta belə bir deyim var ki, kim bu bölgədə əsas söz sahibidirsə, məhz, o, bütün dünyaya nəzarət edir. Son illərə qədər burada Vaşinqtonun sözü keçərli idi. Son vaxtlar isə vəziyyət bir qədər dəyişib. Belə ki, son illərdə bölgəyə səfər edən yüksək ranqlı Çin rəsmilərinin sayı artıb.

Qeyd etmək lazımdır ki, Pekin gözlənilmədən regionda barışmaz rəqiblər təsiri bağışlayan Ər-Riyadı və Tehranı bir araya gətirərək barışdırıb. Bu, aydın səmada şimşək çaxması kimi təəccüblü haldır. Hər halda, bu dövlətlərin gələcəkdə bir-biri ilə sıx əməkdaşlıq edəcəyi şübhə doğurur, çünki maraqlar bambaşqadır.

Əlbəttə, bizim üçün əsas böyük uğur qardaş Türkiyənin dünyanın ən böyük güc mərkəzlərindən birinə çevrilməsi ola bilər. Bütün Türk dövlətlərinin bir araya gələrək sarsılmaz birlik yaratması hava-su kimi zəruridir. Bu, xeyli dərəcədə Türkiyədə keçiriləcək seçkilərin nəticələrindən asılıdır.

Dünyanın belə bir həssas məqamında Prezident Rəcəb Tayyib Ərdoğan kimi güclü və qətiyyətli bir liderin yaxın illər ərzində də Türkiyəyə rəhbərlik etməsi çox vacibdir. Ümid edirik ki, müdrik Türk xalqı bu il mayın 14-də ən doğru seçimini edəcək. Bütün hallarda, Türkiyənin seçiminə biz hörmətlə yanaşmağa borcluyuq.

On dörd aydır ki, dünyanın əsas diqqəti Ukraynaya dikilib. Burada iki böyük slavyan ölkəsi arasında barışmaz savaş gedir. Yeni dünya düzəni Ukrayna münaqişəsinin nəticəsindən çox asılıdır. Buna görə də nə vuruşan tərəflər, nə də onların müttəfiqləri geriyə çəkilmək istəmir.

***Məsaim ABDULLAYEV, “Xalq qəzeti”***

*Ekspert rəyi*



**Aydın İBRAHİMOV,**
**BDU-nun Xarici ölkələrin iqtisadi və siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor, siyasi icmalçı**

Karl Marks yazırdı ki, siyasət iqtisadiyyatı özündə təcəssüm etdirir. Hansı ölkə iqtisadi cəhətdən güclüdürsə, siyasətdə də üstün mövqelərə sahib olur. Bunu Çinin nümunəsində də görmək olur.

Son illər Çinin iqtisadi inkişafı ona müstəqil siyasət aparmaq imkanları yaradır. Çin Qərbdən fərqlənən başqa bir idarəetmə quruluşuna malik ölkədir. Onun daxili və xarici siyasətini Kommunist Partiyası müəyyənləşdirir, ölkə iqtisadiyyatı isə liberal bazar qanunları ilə tənzimlənir. Bu, unikal bir modeldir.

Çinin uzun onillər boyu siyasi cəhətdən dünya ağalığına iddialı olmaması, ona Qərbdən kifayət qədər modern texnologiyalar almağa kömək edib. Artıq vəziyyət dəyişir. ABŞ-ı ən çox Rusiya ilə Çinin yaxınlaşması qıcıqlandırır.

Pekinin Rusiyadan enerji asılılığı var. Bu iki ölkəni yaxınlaşdıran həm də onların Qərbin təzyiqlərini birlikdə dəf etməyə də məcbur olmalarıdır. Çinin Üçüncü Dünya ölkələrinə təsir imkanları böyükdür.

Planetimizin yeni nüfuz dairələrinə bölünməsi prosesi başlanıb. ABŞ dünyanı əvvəlki kimi təkbaşına idarə edə bilmir. Aydındır ki, Çin, xüsusilə Avropa qitəsində ABŞ-ın əsas rəqibidir. Siyasi sahədə Pekin “Köhnə qitə”də xüsusi rol oynaya bilmir. Lakin Asiya və Afrikada Çinin iqtisadi nüfuzu durmadan güclənir.

İqtisadi cəhəti bir kənara qoysaq, Çin özünün siyasi modelinə görə də ABŞ üçün təhlükəlidir. Belə ki, “Bir ölkə, bir xalq, bir partiya, iki sistem (sosializm və bazar iqtisadiyyatı)” modeli başqa ölkələrə də sirayət edə bilər ki, ABŞ bunu istəmir.

Yuxarıda sadaladığımız amillər ABŞ-ın rəhbər tutduğu demokratik prinsiplərlə uzlaşmır. Eyni zamanda, Vaşinqtonun yeganə güc olması şansı azalır ki, artmır.

Pekin praqmatik xarici siyasət xətti həyata keçirir. Çinlə rəqabət aparmaq çətindir. Ona görə ki, Pekin tərəfdaş ölkələr qarşısında siyasi tələblər irəli sürmür. ABŞ Rusiyanı hər vəchlə Çinin nüfuz dairəsindən çıxarmaq istəyir. Çin isə hər vasitə ilə bu oyunu pozur.

Çin dünyanın gələcək iqtisadi və siyasi inkişafı ilə bağlı öz baxış bucağını ortaya qoyub. Əvvəllər bu, yalnız Cənubi Şərqi Asiya regionu ölkələri üçün səciyyəvi idi, indi isə başqa regionları da əhatə edir.

Əvvəllər Pekinin belə bir iddiası yox idi. Bu, yeni prosesdir. Bu, ABŞ və digər Qərb döblətlərini bərk narahat edir. Faktiki olaraq, Çinin təkcə iqtisadi deyil, həm də siyasi və mədəni ekspansiyası baş verir.

Rusiya ilə Çinin xarici siyasət məsələlərində inteqrasiyası baş verir. ABŞ bundan çox əndişələnir. Sual olunur. Vaşinqton bu tandemin öhdəsindən gələ biləcəkmi? Düşünürəm ki, bunu zaman göstərəcək. Ən düzünü isə Allah bilir.

*İdman xəbərləri*

# Paralimpiyaçılarımızdan böyük uğur



**Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin para-pauerliftinq idman növü üzrə milli komandasının üzvü Zəhra Dadaşova (55 kq) dünya kubokunda uğurla çıxış edib.**

İdmançımız Gürcüstanın Tbilisi şəhərində keçirilən yarışda gənclər arasında 75 kq nəticə göstərərək fərdi çəkidə qızıl, ümumi çəkidə isə gümüş medal qazanıb.

Komandamızın digər üzvü Pərvin Məmmədov 49 kq çəki dərəcəsində fərdi kateqoriyada 148 kq nəticə göstərərək gümüş, ümumi kateqoriyada bürünc medal qazanıb. Daha bir idmançımız Ceyhun Məmmədov isə 54 kq çəki dərəcəsində fərdi kateqoriyada 152 kq nəticə göstərərək 1-ci yeri tutub. O, ümumi kateqoriyada 3 cəhdin cəmində 441 kq nəticə ilə daha bir qızıl medala sahib olub.

***L.AZAD,***
***"Xalq qəzeti"***



## Taekvondoçumuz fəxri kürsüyə yüksəlib

**Azərbaycan Bolqarıstanın paytaxtı Sofiyada taekvondo üzrə keçirilən klublararası Avropa çempionatında ilk medalını qazanıb. Təmsilçimiz "Alpman" Taekvondo Klubunun üzvü Səlimə Quliyeva fəxri kürsüyə yüksəlib.**

Gənc taekvondoçuların mübarizəsində 42 kiloqram çəkidə dayanq üzərinə çıxan təmsilçimiz səkkizdəbir finalda böyük britaniyalı Gina Beyni ("Horizon" Taekvondo Akademiyası) 2:0 hesabı məğlub edib. İdmançımız eyni hesabla Almaniyanın "TVBB Elit" klubunun üzvü Stefani Nikolayevaya da qalib gəlib. Yarımfinalda Vasiliki Papadopoulounu ("Açilleas Egaleo", Yunanıstan) sınağa çəkən S.Quliyeva bu dəfə 2:0 hesablı qələbəyə sevinib.

Həlledici mərhələdə taekvondoçumuzun rəqibi Mixalina Vrobel (Polşa klubu) olub. Gərgin keçən qarşılaşma idmançımızın 1:2 hesablı məğlubiyyəti ilə başa çatıb. Bununla da, S.Quliyeva klublararası Avropa çempionatının gümüş medalı ilə kifayətlənib.

## Dünya kubokunda daha bir qızıl medal

**Azərbaycanın idman gimnastı Nikita Simonov dünya kubokunda qızıl medal qazanıb. Misirin paytaxtı Qahirədə keçirilən yarışda finala qədər uğurla irəliləyən təmsilçimiz halqalar ilə hərəkətin icrasında ən yüksək nəticə göstərərək birinci olub.**

**Dünya kuboku yarışı aprelin 30-da başa çatacaq.**



**İstər qadın, istərsə kişi enerjisi olsun, bunların arasında balans yaratmaq həyatda "tarazlığı" tapmaq üçün çox vacib amillərdəndir. Əgər siz bunun çatışmazlığını hiss edirsinizsə və enerjinizi artırmaq istəyirsinizsə, oxuyun!**

Cinsindən asılı olmayaraq, hamımızda kişi və qadın enerjiləri var. Bu enerjilər bəzən tarazlıq nöqtəsindən uzaqlaşır və onlardan birinin daha dominant olduğu bir nöqtədə dayanır. Əsas məqsəd orta yolu tapmaq olsa da, bəzən kişi enerjisi daha az, qadın enerjisi isə daha dominant ola bilir. Bəs, bu halda kişi enerjinizi necə artıra bilərsiniz?

**Özünüzə güvənin**

Qərarlarınızı daim sorğu-sual etdiyiniz zaman özünüzə olan inamın azaldığını görmüsünüzmü? Özünüzü olduğunuz kimi qəbul edin, qərar verin və hərəkətə keçmək üçün ən vacib addımları atın.

**Yollar axtarın**

Məntiq və analitik təfəkkürünüzdən istifadə edərək problemlərinizin öhdəsindən gələ bilərsiniz. Sizə verilən tapşırıqlar üzərində uzun-uzadı düşünmək əvəzinə, onları necə həyata keçirə biləcəyinizi və onları ən rahat şəkildə necə aradan qaldıracağınızı düşünün.




**Enerji nədir?**

Güclü tərəfləri – iradə, aydınlıq və diqqət olan bir enerji növü əslində kişi enerjisidir. Məntiq və analitik düşüncə kimi xüsusiyyətlər kişilərə xasdır. Qaydalar qurmağı sevən bu enerjiyə sahib insanlar, məntiqlərini necə işlətmək mövzusunda daha strateji düşünürlər və bu qaydalar çərçivəsində daha sərt münasibət sergiləyirlər.

Enerjinin əskik olduğunu başa düşdüyünüz zaman bu üsullara əməl edə bilərsiniz. Burada çalışmaq, işləmək və uğur qazanmaq üçün hədəflərin qoyulması nəzərə çarpır:

**Qətiyyətli olun**

İş həyatınızdan tutmuş şəxsi həyatınıza qədər bəzi məsələlərdə qərarsız ola bilərsiniz. Qərar verməkdən qorxmayın. Bir mövzuda bunun doğru olduğuna inanırsınızsa, çəkinməyin və fikrinizi söyləməkdə davam edin.

**İşə keçin**

Qəbul etdiyiniz qərarları həyata keçirməkdən qorxmayın. Qərar verdiyiniz hərəkətləri yerinə yetirərkən konsentrasiya problemi ilə üzləşə bilərsiniz. Bunun üçün meditasiya və nəfəs məşqlərindən istifadə edə bilərsiniz.

**Sevincinizi paylaşın**

Təkliflər irəli sürməkdən, insanları xoşbəxt etməkdən və fikir bildirməkdən qorxmayın. Bütün bunları edərkən özünüzə daha çox güvəndiyinizi anlayacaqsınız. İnsanlara güclü və bacarıqlarınızı göstərməkdən çəkinməyin.

**Nizamla yaşayın**

Həyatınızın hər sahəsində qaydalara sahib olun və bu qaydalar çərçivəsində hüdudlarınızı təyin edin. Söhbət bu sərhədlərin divar kimi olmasından getmir, sizin həyatınızın axarını asanlaşdıracaq sərhədlər olmalıdır. Rutinlərinizi pozmayın və nizamlı yaşamağa çalışın.

Əziz oxucu! Bütün bu sadalananlara əməl etdiyiniz zaman, əslində, xoşbəxt olmaq üçün çox şeyə ehtiyacınızın olmadığını anlayacaqsınız. Kiçik sevinclər belə sizə özünüzü güvəndə hiss etməyinizə yetəcək…

***Səadət RZAYEVA, "Xalq qəzeti"***

# "Togg"la gəlin gətirdilər

**Türkiyənin bu yaxınlarda kütləvi istehsalına başladığı yeni avtomobil brendi "Togg"dan Bursada toy edən gənc cütlüyün gəlin maşını kimi istifadə olunub.**



Türkiyə mediası xəbər verir ki, Bursadan millət vəkilliyinə namizəd olan sənaye və texnologiya naziri Mustafa Varank bu günlərdə bir mədəniyyət mərkəzinin açılışında onun yanına gələn Hüseyn Özdəmirin tezliklə toy edəcəyini öyrənib və avtomobilin gəlin maşını kimi istifadə ediləcəyinə söz verib.

Nazir vədinə əməl edib və nəqliyyat vasitəsini Bursa Böyükşəhər Bələdiyyə başçısı Alinur Aktaşa təhvil verib. Mer "Togg"u bəzədərək gəlin maşınına çevirib. Yeri gəlmişkən, gəlin də maşından çox razı qalıb.

"Togg" ilə həyəcanının dəfələrlə artdığını ifadə edən bəy H.Özdemir yerli jurnalistlərə açıqlamasında "Çox xoşbəxtəm. Xəyallarımın gerçəkləşdiyi bir gün yaşayıram. Sağ olun, nazirimiz bu xoşbəxtliyi, yaxşılığı və gözəlliyi mənə layiq gördü", - deyə bildirib.

Xatırladaq ki, qardaş ölkənin ilk elektrik avtomobili "Togg" bu il aprelin 3-də Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və xanımı Əminə Ərdoğana təqdim olunub.

***Aytən NƏCƏFOVA,***
***"Xalq qəzeti"***



# Dünya ölkələrinin hərbi xərcləri rekord həddə çatıb

**Stokholm Sülh Araşdırmaları İnstitutu 2022-ci ildə beynəlxalq hərbi xərclərin 3,7 faiz artaraq 2,24 trilyon ABŞ dolları səviyyəsinə çatdığını yeni reytinqində bəyan edib.**

Reytinqə əsasən, 2022-ci ildə ən çox hərbi xərclərə vəsait ayıran ölkələr ABŞ, Çin və Rusiya olub. Bu isə dünya üzrə ümumi məbləğin 56 faizini təşkil edib.

Əvvəlki illərdə olduğu kimi, 2022-ci ildə də ABŞ hərbi xərclərə ən çox vəsait ayırmış ölkə kimi reytinqdə qalır. Belə ki, bu ölkənin hərbi xərcləri 2022-ci ildə 877 milyard dollara çatıb. Bu rəqəm dünya ölkələri üzrə hərbi xərclərin ümumilikdə 39 faizini təşkil edir. Müqayisə üçün qeyd edək ki, bu vəsait dünya üzrə ikinci ən böyük xərcləməni həyata keçirən Çinin ayırmış olduğu 292 milyard dollardan üç dəfə çoxdur.

Üçüncü yerdə qərarlaşan Rusiyanın hərbi xərcləri 2022-ci ildə təxminən 86,4 milyard dollar təşkil edib. Bu da əvvəlki illərlə müqayisədə 9,2 faiz artım deməkdir. Dünya ölkələri sırasında hərbi xərcləmələr cəhətdən ilk beşlikdə 81,4 milyard dollar ilə Hindistan dördüncü yerdə qərarlaşıb. 75 milyard dollar ilə Səudiyyə Ərəbistanı 5-ci sırada ilk beşliyi tamamlayır.

Mərkəzi və Qərbi Avropada hərbi istiqamətə ən çox maliyyə ayıran ölkə 68,5 milyard dollarla Böyük Britaniya olub. Böyük Britaniya bu məbləğin təxminən 2,5 milyard dollarını Ukraynaya hərbi yardım üçün sərf edib.

2022-ci ildə Rusiya–Ukrayna müharibəsi ilə əlaqədar Ukraynanın hərbi xərcləri 44 milyard dollara çatıb.

Hesabatda proqnozlaşdırılır ki, bu il üçün qlobal hərbi xərclərin artmı gözlənilir.

***Rizvan FİKRƏTOĞLU,***
***"Xalq qəzeti"***

*Sağlamlıq guşəsi*

# Nə yesən, xeyir görəsən?

**Qarabaşağın qida rasionunda olması bir çox xəstəliyin profilaktikası effektini təmin edir. Mütəxəssislər qarabaşağın orqanizmə xeyirli xüsusiyyətləri ilə birlikdə, insanda bədxassəli şişlərin riskini artıran mənfi dəyişikliklərin qarşısını almaq üçün faydalı olduğunu iddia edirlər. Bu effekti qarabaşağın tərkibində bir çox faydalı molekulun olması ilə əlaqələndirirlər.**



Qarabaşaq orqanizmi diabet, artıq çəki və qocalmaya qarşı müdafiə edir. Pəhriz həkimlərinin fikrincə, qarabaşağın böyük üstünlüklərindən biri onun aşağı kalorili olmasıdır. Bu, onda uzunmüddətli toxluğu təmin etmək qabiliyyəti ilə bir araya gəlir. Yaşı 40-dan yuxarı olanlar üçün qarabaşaq bitki zülalının zəngin mənbəyi kimi faydalıdır.

***

Türkiyəli uzman həkim, ürək və daxili xəstəliklər üzrə professor Canan Karatay insanı 10 yaş cavanlaşdıran meyvənin adını açıqlayıb. Qidalanma ilə bağlı açıqlamaları ilə hər zaman gündəmdə olan həkim bu dəfə gənclik meyvəsi haqqında danışıb. O, **kivinin** sağlamlıq üçün inanılmaz faydalı olduğunu bildirib. Karatayın sözlərinə görə, kivini səhər yataqdan qalxandan axşam yatana qədər hər vaxt yemək olar.

Professor kivinin dəri hüceyrələrini yenilədiyini və insanı 10 yaş cavanlaşdırdığını deyib. Bildirib ki, kivi həm cavanlaşdırır, həm də sağlam hüceyrələrin sayını artırır. Kivi təbiətdə ən yüksək antioksidant olan sirli meyvədir. Zədələnmiş hüceyrələrin sürətli bərpasını təmin edir. Çində daha çox istehlak edilən kivi çinlilərin cavanlıq sirri hesab edilir. Lutein və zeaksantinlə (karotin piqmenti) zəngin olan kivi qocalmağa meyilli olan hüceyrələri diskvalifikasiya edir və hüceyrələrin yenilənməsini təmin edir.

***

Tədqiqatçı alimlərin fikrincə, **mərci** orqanizmi xərçəngin bütün növlərindən qoruya bilən qida məhsuludur. Bağırsaq xərçəngi nöqteyi-nəzərindən mərci bağırsağımızın sağlamlığı üçün faydalı olan prebiotik liflə zəngindir.

Onkoloqlar təcrübələrinə əsasən belə qərara gəliblər ki, məsələ mərcinin yalnız bütövlükdə xərçəngin inkişaf riskini azaldan antioksidant və flavonidlərlə zəngin olmasında deyil. Mərcinin tərkibində, həmçinin qan təzyiqi və ürək sağlamlığı üçün faydalı olan fol turşusu və kalium var. Xəstəliklə bağlı qırmızı ətin qəbulunu azaltmağa çalışanlar, onu mütləq mərcinin zəngin olduğu bitki zülalları ilə əvəz etməlidirlər.

***Hazırladı:***
***Z.HÜSEYNOVA, "Xalq qəzeti"***

## HAVA PROQNOZU

✓ ***Aprelin 30-da***

✓ **Bakıda və Abşeron yarımadasında** dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər bəzi yerlərdə az çiskinli olacağı, gecəyə doğru isə yağış yağacağı ehtimalı var. Cənub küləyi əsəcək, axşam mülayim şimal-qərb küləyi ilə əvəz olunacaq. Gecə 11-16°, gündüz 24-29° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 755 mm civə sütunu, nisbi rütubət 55-65 faiz olacaq.

✓ **Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında** bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Gecə 9-14°, gündüz 24-29° isti olacaq.

✓ **Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, axşam ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 5-10°, gündüz 12-17°, bəzi yerlərdə 20° isti olacaq.

✓ **Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında** bəzi yerlərdə fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək. Gecə 5-10°, gündüz 12-17°, bəzi yerlərdə 20-23° isti olacaq.

✓ **Qazax, Gəncə, Goranboy, Tərtər, Füzuli rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, axşam ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 11-16°, gündüz 21-26° isti olacaq.

✓ **Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Mingəçevir, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Axşama doğru ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 11-16°, gündüz 20-25°, dağlarda gecə 6-11°, gündüz 13-18° isti olacaq.

✓ **Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüzdən başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, gündüz ayrı-ayrı yerlərdə arabir güclənəcək. Gecə 11-16°, gündüz 24-29° isti olacaq.

✓ **Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Cəlilabad rayonlarında** əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq ərazilərdə arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək, arabir güclənəcək. Gecə 12-16°, gündüz 23-28°, dağlarda gecə 13-15°, gündüz 16-21° isti olacaq.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 5021
SİFARİŞ 1021
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00